

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 41 (24.476)

25 oktyabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Qalib Liderin Zəfər yolu



## Prezident İlham ƏLİYEV:

“*Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir – hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün.*”

Səhifə ⇨ 2

# Astana görüşü:

## qardaşlığın və strateji tərəfdaşlığın yeni səhifəsi



Azərbaycanın Mərkəzi Asiya regionunda yerləşən türkdilli respublikalarla həm ikitərəfli, həm də çoxtərəfli platforma üzərindən əlaqələrində aparıcı amil tarix, dil, din yaxınlığı, mədəni, mənəvi bağlılıqdır. Bu xüsusda Qazaxıstanla münasibətlər isə tarixi köklərə dayanmaqla paralel, həm də müasir çağırışlara uyğun dövlət başçılarının şəxsi dostluq münasibətləri zəminində inkişaf edərək dərin məzmun qazanmaqdadır. Ötən illərdə liderlərin qarşılıqlı müntəzəm rəsmi və işgüzar səfərləri ölkələrimiz arasında münasibətlərin yeni mərhələyə qədəm qoymasına şərait yaradıb. Azərbaycanla Qazaxıstan arasında 2005-ci il mayın 24-də imzalanmış strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilə və 170-dən çox sənəd, eləcə də 2024-cü ildə ilk iclası keçirilən Ali Dövlətlərarası Şura iki ölkə arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsi üçün möhkəm hüquqi baza formalaşdırır. Prezident İlham Əliyevin oktyabrın 20-də Astanaya səfəri, səfər çərçivəsində ertəsi gün keçirilən görüşlər, imzalanan sənədlər yaxın gələcəkdə ikitərəfli münasibətlərin dərinləşməsi istiqamətində mühüm addımların atılacağından xəbər verdi.

Səhifə ⇨ 3

# Qalib Liderin Zəfər yolu



(əvvəli 1-ci səhifədə)

*Azərbaycan xalqı həmişə öz Liderinə güvənib, ona ən güclü dayaq olub. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla Prezidentin birliyi dayanır. Dövlətimizin başçısı İlham Əliyevin fəaliyyətinin əsasında da xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək amalı durur. Azərbaycanın bütün sahələrdə qazandığı uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən səsləndirdiyi* ***“Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”*** *fikirləri ilə bir daha müstəqil Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin ona olan etimadını, inamını bütün istiqamətlərdə doğrultduğunu, ən əsası Qarabağ probleminin həlli ilə bağlı vəsiyyətini yerinə yetirməsindən qürurlandığını ifadə etdi:* ***“Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq!”***

İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi Qələbəsindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə ardıcıl səfərləri, Zəfər Gününün təsis edilməsi barədə Sərəncamı, Qələbə paradının keçirilməsi dövlətimizin başçısının 30 ilin nisgilinə son qoymasından, artıq haqqın-ədalətin bərpasından, hər bir vədinin arxasında konkret əməli işin dayanmasından sevinc hisslərini nümayiş etdirir. Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri zamanı əhali tərəfindən böyük coşqu və izdihamla qarşılanması, ünvanına göndərilən saysız-hesabsız minnətdarlıq məktubları xalqın öz Liderinə, Müzəffər Sərkərdəsinə bəslədiyi ehtiramın təzahürüdür.

Böyük vətənpərvər, dünyanın ən böyük azərbaycanlısı Ümummilli Lider Heydər Əliyevin həyatının amalını xalqımızın, ölkəmizin rifahı və tərəqqisi təşkil edib, sözün əsl mənasında, bu müqəddəs amal uğrunda ömrünü şam kimi əridib. Azərbaycanda hakimiyyətdə olduğu hər iki dövr ərzində, xüsusilə də 1993-cü ildən sonra ölkəni inkişaf etdirmək, eləcə də müstəqilliyini möhkəmləndirmək üçün misilsiz işlər görən müdrik rəhbər iqtisadiyyatımızın yüksəlişi üçün nəhəng layihələr gerçəkləşdirib, milli mənafelərimizin təmini ilə bağlı dünya arenasında qətiyyətli siyasət yürüdüb.

Amma heç şübhəsiz, dahi şəxsiyyət Heydər Əliyevin xalqı, ölkəsi üçün həyata keçirdiyi mühüm missiya özündən sonra Azərbaycanı etibar edəcəyi Prezident İlham Əliyevin timsalında inamlı siyasi varis yetişdirməsi olub. Bir zamanlar arzularımızda yaşatdığımız bugünkü müasir Azərbaycanın memarları isə bu torpağın yetişdirdiyi görkəmli şəxsiyyətlər – Ulu Öndər Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı Qalib Lider İlham Əliyevdir.

Dövlətimizin başçısı İlham Əliyev xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib, ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, Azərbaycan islahatçı ölkə kimi tanınıb, insanların sosial rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün Azərbaycanın iştirakı olmadan bölgədə hansısa siyasi və iqtisadi layihənin həyata keçirilməsi qeyri-mümkündür. Azərbaycan iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin uğurlu icrası ilə regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Bu gün Qafqazda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev xalqa müraciət edərkən bildirmişdir: ***“İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.*** Böyük dahi Heydər Əliyevin ocağında vətənpərvər Azərbaycan vətəndaşı kimi yetişən Prezident İlham Əliyev atasının bu xalq, dövlət üçün gördüyü işlərin əyani şahidi, həm də Ulu Öndərin yarımçıq qalan işlərini uğurla reallaşdıran layiqli davamçısı oldu. Bütün bunlara görə özünü xoşbəxt sayan Prezident İlham Əliyev bu barədə deyirdi: ***“Mənim xoşbəxtliyim bundadır ki, mən Heydər Əliyev adlı dahi şəxsiyyətin yanındayam və məndə öyrənmə imkanları daha çoxdur, nəinki başqa adamlarda”.***

Buna görə idi ki, ömrünü Azərbaycan üçün şam kimi əridən, azərbaycanlı olması ilə daim fəxr edən böyük vətənpərvər Heydər Əliyev Azərbaycanın gələcəyini də Özü qədər inandığı Prezident İlham Əliyevə etibar etmişdi. Müdrik rəhbər bilirdi ki, onun yarımçıq qalan işlərini Prezident İlham Əliyev layiqincə yerinə yetirəcək. Gün gələcək Azərbaycan Bayrağını Şuşaya məhz Prezident İlham Əliyev sancacaq. Çox keçmədən Azərbaycan xalqı vaxtilə Ulu Öndərin söylədiyi bütün bu məsələlərin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə gerçəkləşdirildiyinin şahidi oldu.

Ötən illər ərzində Azərbaycanı böyük inkişaf mərhələsinə yüksəldən Prezident İlham Əliyevin də gündəliyində duran əsas məsələ torpaqlarımızın işğaldan azad edilməsi idi. Prezident İlham Əliyevin əldə etdiyi iqtisadi gücdən, sosial rifahdan, müasir ordu quruculuğundan tutmuş, dünya siyasətindəki yüksək mövqeyimizə qədər hər bir uğur yalnız bir məqsədə, milli prioritetimiz olan torpaqlarımızın azadlığına yönləndirilmiş, həm ölkə daxilində, həm də beynəlxalq arenada görülən bütün işlər, atılan addımlar ərazi bütövlüyümüzün təmininə hesablanmışdı.

2020-ci il sentyabrın 27-də isə o tarixi gün yetişdi və Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev qəhrəman oğullarımıza Vətən uğrunda “İrəli!” əmrini verdi. Düşməni cəmi 44 gün ərzində “dəmir yumruğ”un zərbəsi ilə qarşısında diz çökdürən Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına Zəfər sevinci yaşatdı, doğma yurdundan didərgin düşən yüz minlərlə vətəndaşımızın torpaq, yurd nisgilinə son qoydu. Azərbaycan tarixinə qürurlu gün kimi yazılan Şuşa Zəfərinin şad xəbərini qalib sərkərdə olaraq Şəhidlər xiyabanından xalqımıza müjdələyən Müzəffər Ali Baş Komandan İlham Əliyev həm də o gün bir oğul olaraq ata vəsiyyətini yerinə yetirməsindən keçirdiyi xoşbəxtlik hissini xalqımızla bölüşdü.

Prezident İlham Əliyev daha bir milli prioriteti – Böyük Qayıdışı gerçəkləşdirmək istiqamətində Qarabağ və Şərqi Zəngəzurda misilsiz bərpa-quruculuq işləri görür. Vaxtilə Ulu Öndərin bünövrəsini qoyduğu Qarabağa qayıdış siyasətini bu gün Prezident İlham Əliyev qətiyyət və müvəffəqiyyətlə gerçəyə çevirir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın uğurlara imza atması isə müstəqil Azərbaycanın bünövrəsini qoymuş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ən böyük töhfədir. Bu gün işğaldan azad olunmuş yurdlarımızda genişmiqyaslı quruculuq layihələri başlanılıb. Erməni vandallarının, təxminən, 30 ilə yaxın müddətdə Yer üzündən silməyə çalışdıqları şəhər və kəndlərimiz, tarixi, maddi mədəniyyət abidələrimiz yenidən həyata qaytarılır. Qarabağda XXI əsrin “ağıllı şəhər”ləri, “ağıllı kənd”ləri tikilir. Yeni yollar salınır, körpülər, su elektrik stansiyaları istifadəyə verilir, beynəlxalq hava limanları açılır, yeni yaşayış binalarının təməlləri qoyulur, nəhəng layihələr gerçəkləşdirilir.

Azərbaycanda milli birliyin möhkəmlənməsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın böyük xidmətləri vardır. Azərbaycan Prezidentinin yaxın silahdaşı kimi Mehriban xanım Əliyevanın aparılan dövlət siyasətinə töhfələri ölkəmizin nailiyyətlərini daha da artırır. Azərbaycanın ev sahibliyi ilə keçirilən beynəlxalq tədbirlər, qlobal humanitar təşəbbüslər bütün dünyada ölkəmizin tolerantlıq, fərqli mədəniyyətlər arasında dialoq məkanı kimi mövqeyini gücləndirir.

Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgərlərimizin və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Xalqımız hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bu yolda qurban gedən şəhidlərimizin xatirəsini uca tutur. Əbədiyyətə qovuşan şəhidlərimiz öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırıb. Hər günü bir qəhrəmanlıq dastanı olan, Azərbaycan tarixinə parlaq səhifə kimi yazılan 44 günlük Vətən müharibəsi ölkəmizin hərbi gücünün, ordumuzun haqq işi uğrunda ədalətli savaşının nümayişinə çevrildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Dövlətimizin gücü, qüdrəti, Müzəffər Ali Baş Komandanımızın qətiyyətli siyasəti, xalqımızın mübariz ruhu, sarsılmaz birliyi Azərbaycanı yeni zəfərlərə aparacaq. Xalqımız bundan sonra da müzəffər və qurucu xalq kimi öz adını tarixin yaddaşına silinməz izlərlə həkk edəcək, üçrəngli bayrağımız daim ən yüksək zirvələrdə dalğalanacaq. ***“Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm”***, – deyən Prezident İlham Əliyev qazanılan tarixi qələbəmizlə Ulu Öndərin dövlətçilik irsinə necə sadiq olduğunu, Ata vəsiyyətini yerinə yetirdiyini nümayiş etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əzmi, gücü, iradəsi sayəsində qarşısına qoyduğu milli prioriteti qətiyyətlə gerçəkləşdirdi, torpaqlarımızı işğaldan azad etdi, müqəddəs üçrəngli, ay-ulduzlu bayrağımızı Qarabağ və Zəngəzurun zirvələrində dalğalandırdı, Qalib Liderin Zəfər yolu Azərbaycanı bütövləşdirdi. 2020-ci ilin 27 sentyabrından başlanan İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun malik olduğu imkanları bir daha dünyaya nümayiş etdirdi. Azərbaycan Ordusu dövlətimizin başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə tarix yazdı – Zəfər tarixini.

**Məhəbbət MİRZƏYEVA**
**Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti**

# Astana görüşü:

## qardaşlığın və strateji tərəfdaşlığın yeni səhifəsi

(əvvəli 1-ci səhifədə)



***Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri iki ölkə arasında möhkəm qardaşlıq, qarşılıqlı etimad və strateji tərəfdaşlıq münasibətlərinin növbəti təsdiqi kimi mühüm əhəmiyyət daşıdı deyə bilərik. Tərəflər arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanmasının 20 illiyi münasibətilə Birgə Bəyanatın imzalanması və Ali Dövlətlərarası Şuranın ikinci iclasının keçirilməsi səfərin həm siyasi çəkisini, həm də iqtisadi dəyərini ortaya qoydu. Səfər çərçivəsində liderlərin iştirakı ilə "Orta Dəhlizin inkişafı" (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) birgə layihəsinin təqdimatı oldu. Bu xüsusda onu vurğulamaq lazımdır ki, Azərbaycan sözügedən layihənin inkişafı və şaxələndirilməsi üçün mühüm təşəbbüslər irəli sürür, layihələrə imza atır. Xəzərin ən böyük ticarət donanması sayılan Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər infrastrukturlar respublikamızı beynəlxalq nəqliyyat-logistika mərkəzlərindən birinə çevirməklə həm də Orta Dəhlizin yükaşırma qabiliyyətini xeyli artırıb.***

Təsadüfi deyildir ki, son bir neçə ildə bu dəhliz üzrə yükdaşımaların həcmi 8 dəfə artıb. Müqayisə üçün bildirək ki, əgər 2021-ci ildə daşınan yüklərin həcmi 560 min ton idisə, 2024-cü ildə bu rəqəm 4,5 milyon tona çatıb. Bu il üçün proqnoz 4,9 milyon tondur, 2030-cu ilədək həmin həcmin hazırkı dövrlə müqayisədə 3 dəfə artması proqnozlaşdırılır. Bu isə, öz növbəsində, layihənin əhəmiyyətinin növbəti illərdə daha da artacağını əsaslandırır. Türk dünyasının birliyi naminə Orta Dəhlizin iqtisadi, ticari əhəmiyyətini xeyli artırmaq üçün qətiyyətli addımların atılması baxımından Azərbaycan-Qazaxıstan iş birliyi, birgə fəaliyyəti mühüm rol oynayır və Astanada təqdimatı olan "Orta Dəhlizin inkişafı" layihəsi, sözsüz ki, həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın bu istiqamətdəki inkişafında aparıcı yol xəritəsi rolunu oynayacaq.

Azərbaycan Vətən müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlar timsalında cari il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalarla bölgəyə yalnız sülh deyil, həm də yeni faydalı əməkdaşlıq mühiti qazandırmaqdadır. Bu baxımdan, gələcəkdə Orta Dəhlizin mühüm seqmentlərindən biri kimi çıxış edəcək Zəngəzur dəhlizinin açılması Türk dünyasını daha sıx birləşdirməklə yanaşı, o cümlədən Azərbaycan-Qazaxıstan əlaqələrinə də yeni məzmun qazandıracaq. Prezident İlham Əliyev Astanada keçirilən Ali Dövlətlərarası Şuranın iclasında çıxışı zamanı bölgədə yeni sülh və əməkdaşlıq mühitinin formalaşmaqda olduğunu diqqətə çatdırdı, Zəngəzur dəhlizinin açılacağına dair mühüm mesajlar verdi. Sitat: ***"Bu gün Orta Dəhliz layihəsinin reallaşdırılması çərçivəsində əldə olunanlar, həmçinin qarşıdakı planlarla bağlı təqdimat da etdik. Bununla yanaşı, öz tərəfimdən əlavə etmək istəyirəm ki, hazırda biz hər şeyi planlaşdırır və həyata keçiririk, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində avtomobil və dəmir yolu əlaqəsi üzrə bütün işlər gələn ilin ortalarında başa çatdırılacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də bütün bunlar analoji sürətlə həyata keçiriləcək və belə olan halda Zəngəzur dəhlizinin açılışı 2028-ci ilin sonuna qədər baş verə bilər".***

Bu gün Azərbaycanda Qazaxıstan kapitalı ilə 250-dən çox müəssisənin qeydiyyata alınması iqtisadi sahədə ölkələrarası tərəfdaşlığın artıq kifayət qədər möhkəm təməllər üzərində bərqərar olunduğunu göstərir. İki ölkə arasında yaradılmış Birgə İnvestisiya Fondu 300 milyon dollarlıq nizamnamə kapitalı ilə qarşılıqlı investisiya mühitinin genişlənməsinə xidmət edir. Azərbaycan Qazaxıstan iqtisadiyyatına 225 milyon dollar, Qazaxıstan isə Azərbaycan iqtisadiyyatına 136 milyon dollar investisiya yatırıb. Güclənən iqtisadi münasibətlər Azərbaycan və Qazaxıstan arasında ticarət dövriyyəsinin dinamik şəkildə artımına da təsir göstərir. Təqdiredici haldır ki, Qazaxıstan Mərkəzi Asiya regionunda Azərbaycanın birinci ticarət tərəfdaşı kimi tanınır. Tərəflər arasında ticarət dövriyyəsi 2024-cü ildə 470 milyon dollara, 2025-ci ilin yanvar-avqust ayları ərzində isə əvvəlki ilin göstəricilərini üç dəfə üstələyərək 547 milyon dollara çatıb. Bu artım Orta Dəhlizin potensialından səmərəli istifadə və nəqliyyat və logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə bağlıdır.

Qazaxıstan Azərbaycana taxıl, alüminium, metal məmulatları, kimya və neft məhsulları ixrac, maşınqayırma məhsulları, etilen polimerləri və ərzaq məhsulları isə idxal edir. Ölkələrimiz Qafqaz və Türkiyə bazarlarında kənd təsərrüfatı məhsullarının emalı və paylanması üzrə birgə mərkəzlərin yaradılmasını da nəzərdə tutur. İnvestisiya əməkdaşlığı iqtisadi inteqrasiyanın mühüm istiqaməti kimi, gələcəkdə ölkələrarası iqtisadi münasibətlərin daha da dərinləşməsinə və hər iki ölkədə rəqabətqabiliyyətli biznes mühitinin formalaşmasına təsir göstərən əsas amillərdən biridir. Prezident İlham Əliyev Astanada keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxışı zamanı iqtisadi və ticari sahədə birgə əməkdaşlığın perspektivlərinə toxundu, ölkələrarası iqtisadi-ticari əlaqələrin möhkəmləndirilməsi üzrə ciddi nailiyyətlərin əldə olunduğunu vurğuladı: ***"Bu yaxınlarda Hökumətlərarası Komissiyanın müsbət iclası oldu. İqtisadi-ticari əlaqələrin möhkəmləndirilməsi üzrə ciddi nailiyyətlər əldə olunub, əmtəə dövriyyəsi artır və bu, təbii ki, bizi çox sevindirir. Təsis etdiyimiz Birgə İnvestisiya Fondu da böyük potensiala malikdir. Artıq həyata keçirilmə mərhələsində olan bir neçə layihə mövcuddur və konkret layihələrin nəzərdən keçirilməsi, Birgə İnvestisiya Fondu mexanizmi ilə müştərək maliyyə ilə bağlı təkliflər var".***

Azərbaycan-Qazaxıstan dostluq, qardaşlıq münasibətləri ölkəmizin Böyük Qayıdış siyasətinin həyata keçirilməsi prosesində də özünü bariz şəkildə göstərir. Qazaxıstanın maliyyə vəsaiti hesabına Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşası qardaş dəstəyinin əyani ifadəsidir. Prezident İlham Əliyev Astanada mətbuata bəyanatı zamanı Uşaq Yaradıcılıq Mərkəzini bu gün təkcə uşaqların təhsili və inkişafı ocağı deyil, həm də Azərbaycan-Qazaxıstan qardaşlığının və dostluğunun rəmzi kimi dəyərləndirdi: ***"Prezident Tokayevlə Füzulidə açılışını etdiyimiz Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi bu gün təkcə uşaqların təhsili və inkişafı ocağı deyil, həm də qardaşlığımızın və dostluğumuzun rəmzidir. Qarabağ bölgəsinə istər avtomobil nəqliyyatı ilə, istərsə də avianəqliyyatla səfər edən istənilən şəxs, – Füzulidən başqa bölgələri ziyarət etmək üçün istifadə edənlər, – Kurmanqazı adına Mərkəzin yaxınlığından keçərkən hər bir Azərbaycan vətəndaşı və ölkəmizin qonağı qardaş köməyinin şahidi olur. Bu, bizim, o cümlədən Qazaxıstanın qardaş köməyi sayəsində genişmiqyaslı "Böyük Qayıdış" layihəsini uğurla həyata keçirdiyimiz bir vaxtda müstəsna əhəmiyyətə malikdir".***

Prezident İlham Əliyevin Qazaxıstan səfəri həm siyasi, iqtisadi çəkisi ilə seçildi, eyni zamanda da ölkələrarası mədəni, mənəvi bağlılığın təcəssümünə çevrildi. Azərbaycan liderinin şərəfinə verilən ziyafətdə Ümummilli Lider Heydər Əliyevin sevimli mahnısı "Alagöz" mahnısının səsləndirilməsi, fonda isə Ulu Öndərin Prezident İlham Əliyevlə birgə kadrlarının nümayişi ölkələrimiz arasında sarsılmaz qardaşlıq və dərin mənəvi bağların olduğunu bir daha dünyaya bəyan etməklə tarixi-siyasi irsə sədaqəti, hörməti göstərdi. Həm Strateji tərəfdaşlıq münasibətlərinin 20-ci ildönümünün məxsusiləşdirilməsi, həm də Ali Dövlətlərarası Şuranın 2-ci iclasının keçirilməsi ilə əlamətdar olan Astana görüşü bir daha əminlik yaratdı ki, tarixi qardaşlıq, ortaq türk kimliyi, oxşar mənəvi, mədəni dəyərlərə, ənənələrə əsaslanan Azərbaycan-Qazaxıstan münasibətləri əsl strateji tərəfdaşlıq xarakterinə malikdir və bu tərəfdaşlığın üfüqləri zaman keçdikcə daha da genişlənəcəkdir.

**Nail ƏSGƏROV**



# Qayıdışın, qürurun simvolu

## QUBADLI

***İ**llər öncə yaşadığım Füzuli rayonunun Alxanlı kəndində qonşuluqda bir neçə ailə var idi. Onlara bəziləri məcburi köçkün, bəziləri də qaçqın deyirdi. Özləri də bu kəlməni eşidəndə baxışları dəyişirdi. Bu kəlmələr onları çox incidirdi, amma ən çox həsrət incidirdi onları. Yurd həsrəti, evlərinin, obalarının düşmən nəfəsində qalmaq həsrəti. Sona xala Qubadlıda dünyaya göz açmışdı həmin gün – işğal günü yurdundan bir ovuc torpağı ovuclayıb kəlağayısının bir küncünə qoyub düyünləyib özü ilə götürmüşdü. Gündə yüz dəfə o torpağı iyləyib ətrini duymasa, yaşaya bilməzdi. Vəsiyyət də edirdi ki, əgər o, dünyadan Qubadlını yenidən görməmiş köçsə, bu torpağı sinəsinə töküb dəfn etsinlər onu.*

***2020-ci ilin 25 oktyabr günü cənab Prezidentin xalqa müraciətini dinləyir, hansı rayonumuzun işğaldan azad edildiyi xəbərini alacağımızı səbirsizliklə gözləyirdim. Qubadlı şəhəri dediyi o anda telefonun səsinə qarışdı alqış sədaları. Sona xala idi zəng vuran, ağlayırdı, "Şükür Allaha, yurdum qayıtdı", – deyirdi. Gözlərim görmür daha, ayaqlarım da tutmur, gedəcəyəm, sürünə-sürünə gedəcəyəm yurduma, torpağını ovuclayıb illərdir, yurd həsrəti çəkə-çəkə kor olan gözlərimə sürtəyəcəm. İnanıram ki, gözlərimə gələn ağı sağaldacaq yurdumun bir ovuc torpağı deyirdi. Sevincinin həddi-hüdudu yox idi bütün azərbaycanlıların, amma qubadlıların sevinci hamımızdan artıq idi.***



Ölkə başçısı 2020-ci ilin dekabr ayının 23-də Azərbaycan xalqına Qaçaq Nəbi kimi xalq qəhrəmanı, Həcər kimi igid qadın, Valeh Bərşadlı kimi general, görkəmli ziyalılar bəxş edən Qubadlıya səfəri zamanı deyirdi: ***"Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq".*** Qubadlının mərkəzində Ulu Öndərimizin layiqli davamçısı, Ali Baş Komandan cənab İlham Əliyevin əllərində üçrəngli bayrağımız göylərə çəkildiyi gün qubadlıların həyatının ən gözəl günü oldu. Dövlət başçısı işğaldan azad olunan torpaqlara səfər edərək erməni terrorunu əyani şəkildə bütün dünyaya göstərdi. Dövlət başçısının Qubadlıya ilk səfəri burada Azərbaycan Bayrağını ucaltması qalibiyyətimizin təqdimatı idi. Növbəti səfər Qubadlının azad olunmasının bir ili münasibətilə 2021-ci ilin 25 oktyabr tarixdə baş tutdu. Həmin səfər zamanı ölkə Prezidenti rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Qubadlıda görülən işlər və gələcək planlarla bağlı fikirlərini açıqladı. İşğaldan azad edilmiş ərazilərimizin, o cümlədən Qubadlının yenidən qurulacağı, tezliklə soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıdacaqları bildirildi. 2022-ci il oktyabrın 19-da dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Qubadlı rayonuna sayca 3-cü səfəri də bir sıra mühüm infrastruktur obyektlərinin təməlqoyma mərasimləri ilə yadda qaldı. Xanlıq-Qubadlı yolunun təməlinin qoyulması, "Qubadlı" yarımstansiyasının və Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışları, Qubadlı şəhərinin Baş planı, rayon ərazisində yaradılacaq Zabuxçay və Bərgüşadçay su anbarlarının layihələri ilə tanışlıq, İşğal və Zəfər muzeyləri kompleksinin, həmçinin "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimləri bunlardan bir neçəsidir. 2023-cü ilin mayın 4 -də Qubadlıya səfəri zamanı cənab Prezident Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərini qoyub. Bu gün Qubadlı rayonunda böyük quruculuq-bərpa işləri həyata keçirilir. Qubadlının gələcək inkişafı ilə bağlı praktiki işlər aparılır. Azad edilmiş torpaqlarda artıq yeddi yarımstansiya inşa olunub. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır. Növbəti 20 il ərzində şəhərdə məskunlaşan əhali sayının 14 min nəfərə çatdırılması nəzərdə tutulur. Rayonda ekoloji kənd təsərrüfatı, balıqçılıq, sənətkarlıq, aqroturizm və digər sahələrin inkişafı üçün imkanlar mövcuddur.

Bu gün həmin ərazilərdə aparılan işlər bu torpağın əsl sahibinin kim olduğunu da sübut edir. İşğaldan azad olunan şəhər və kəndlərimiz yeni, müasirtipli, həm də tarixi görkəmini saxlamaqla yenidən qurulur.

Prezident cənab İlham Əliyevin imzaladığı "Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" Sərəncamda Qubadlının təbiəti, tarixi keçmişinin nəzərə alınması dövlət başçısı tərəfindən xüsusi diqqətdə saxlanılıb. Bu barədə cənab Prezident rayon ictimaiyyəti ilə görüşündə də bildirmişdir: ***"Biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin Baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu Baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq".***

Şərqi Zəngəzur iqtisadi rayonunun təbii sərvətlərlə ən zəngin yerlərindən olan Qubadlı faydalı qazıntılar ilə zəngindir. Rayonun Hacılı kəndində mişar daşı, Bərgüşad çayının sol sahilində yəşəm, Əliquluuşağı, Qundanlı, Muradxanlı və Başarat kəndlərində mərmərləşmiş əhəng daşı, Mollabürhan kəndinin cənubunda tuf daş yataqları mövcuddur. Həmçinin rayonun Xanlıq kəndində qum-gil, Eyvazlı kəndində əqiq yatağı var. İşğaldan öncə Qubadlıda 13 min 160 hektar meşə sahəsi olub. Rayonun ərazisi təbii dərman bitkiləri ilə də zəngindir. Qubadlıda işğala qədər taxıl, üzüm, tütün, bostan məhsulları becərilir, heyvandarlıqla məşğul olunurdu. Əminliklə deyə bilərik ki, Qubadlı rayonu yenidən Azərbaycanın iqtisadi baxımdan ən gəlirli, ən yaşamalı rayonlarından birinə çevriləcək.

44 günlük savaşın sonunda qazanılan zəfərdən sonra təqvimdəki bayram günlərimizin də sayı artıb, igid ordumuzun qazandığı qələbələrlə təqvimə yeni bayram günləri əlavə olundu. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən 25 oktyabr "Qubadlı Şəhəri Günü" kimi qeyd edilir. Azərbaycan xalqı bu unudulmaz tarixi günləri bayram günü kimi qeyd edir. Bu gün də həmin günlərdən biridir Qubadlı şəhəri günü. Qələbə, zəfər günü.

Bu gün işğaldan azad edilmiş bütün rayonların sakinləri kimi Qubadlı sakinləri də öz evlərinə tələsir, öz çırağını öz ocağını yandırmağa can atır. Tarixin ən şanlı qələbəsini qazanan xalq vəhşi düşmənin dağıtdığı yurd yerlərini yenidən gülüstana çevirir. Abad yurdumuzda – Qubadlıda əmin-amanlıqla yaşamağa başlayacağımız gün isə qələbənin əsl təntənəsi olacaq.

**Ramiyə ƏKBƏROVA**



# Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib



Oktyabrın 24-də Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüb, ehtiramlarını ifadə ediblər.



## X.X.Dadaşovanın Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Xəyalə Xalıqverdi qızı Dadaşova Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 20 oktyabr 2025-ci il*

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti məlumat verir ki, 2025-ci ilin yanvar-sentyabr ayları ərzində Naxçıvan Muxtar Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi, əmlak münasibətlərinin optimallaşdırılması və büdcə gəlirlərinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu çərçivədə idarəetmə sistemində struktur islahatları aparılmış, dövlət əmlakının özəlləşdirilməsi və icarəsi sahəsində şəffaflıq və səmərəlilik yüksəldilmişdir.










İdarəetmənin təkmilləşdirilməsi istiqamətində 2025-ci ilin müvafiq dövründə iki dövlət qurumunun fəaliyyəti dayandırılmış, 70 dövlət əmlakı özəlləşdirilmişdir. Dövlət əmlakının özəlləşdirilməsindən, ümumilikdə, 1 092 140 manat vəsait toplanmışdır ki, bu məbləğin 819 105 manatı muxtar respublika büdcəsinə, 273 035 manatı isə xüsusi vəsait hesabına yönəldilmişdir. 2025-ci ildə özəlləşdirmədən daxilolmalarda 43,2 faiz azalma qeydə alınmışdır.

Dövlət əmlakının icarəsindən büdcəyə daxilolmalar əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2024-cü ilin 9 ayı ilə müqayisədə 2025-ci ilin müvafiq dövründə icarə gəlirləri 204 561 manat və ya 70,6 faiz artaraq 494 221 manata çatmışdır. 2025-ci ilin 9 ayı ərzində qüvvədə olan icarə müqavilələrinin sayı 572 olmuş, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 20 müqavilə və ya 3,6 faiz çoxdur. İcarə müqavilələrindən 159-u torpaq, 413-ü isə qeyri-yaşayış sahələrinin icarəsinə aiddir. Torpaq icarəsi müqavilələrinin sayında 36 ədəd və ya 29,3 faiz artım, qeyri-yaşayış icarəsində isə 16 ədəd və ya 3,7 faiz azalma baş vermişdir. Dövr ərzində 176 yeni icarə müqaviləsi bağlanmış, 132 müqavilənin müddəti uzadılmış, 65 müqaviləyə isə xitam verilmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada torpaq idarəçiliyi, daşınmaz əmlakın qeydiyyatı, kadastr, yerquruluşu və rəqəmsal inkişaf sahələrində də ardıcıl tədbirlər həyata keçirilmiş, il ərzində torpaq kateqoriyasının dəyişdirilməsi və uçot işlərinin təkmilləşdirilməsi məqsədilə sistemli fəaliyyət həyata keçirilmişdir.

Cari ilin yanvar-sentyabr ayları ərzində bələdiyyə ərazisində yerləşən torpaq sahələrinin ayrılması ilə bağlı 61 müraciət əsasında 196,4 hektar torpaq sahəsinə dair rəy hazırlanmış, 475 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

İnnovasiyalar və rəqəmsal inkişaf sahəsində işlər davam etdirilmiş, hüquqi və fiziki şəxslər tərəfindən 1 322, notariat ofislərindən isə 4 093 elektron müraciət daxil olmuşdur. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 590 müraciət və ya 12,2 faiz çoxdur.

Daşınmaz əmlakın dövlət qeydiyyatı, inventarlaşdırılması və ünvan reyestrinin aparılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, 2025-ci ilin doqquz ayında 7 733 daşınmaz əmlak üzərində mülkiyyət hüquqları qeydiyyata alınmışdır. Qeydiyyata alınmış əmlaklar üzrə torpaq sahələrinin sayı 3 387, fərdi yaşayış və bağ evlərinin sayı 2 936, qeyri-yaşayış binalarının sayı 156, qeyri-yaşayış sahələrinin sayı 162, mənzillərin sayı 1 064, əmlak kompleksi kimi müəssisələrin sayı isə 28 olmuşdur.

Hesabat dövründə daşınmaz əmlakın qeydiyyatı və kadastr xidmətlərindən 1 788 528 manat xidmət haqqı və 805 976 manat dövlət rüsumu daxil olmuşdur. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə xidmət haqları üzrə 118 646 manat və ya 7,1 faiz artım qeydə alınmışdır.

Hesabat dövründə 359 yerquruluşu planı hazırlanmış, 297 torpaq sahəsində ölçmə işləri aparılmış, 13 xəritə və plan tərtib edilmişdir.

Hesabat dövründə 53 hərrac keçirilmiş, 19 117 manat xidmət haqqı daxil olmuşdur.

Ümumilikdə, 2025-ci ilin yanvar-sentyabr aylarında torpaq idarəçiliyi, daşınmaz əmlakın qeydiyyatı, yerquruluşu və rəqəmsal xidmətlər sahəsində, habelə dövlət əmlakının balans mənsubiyyətində yenilənmələr aparılmış, ləğv edilmiş və ya yenidən təşkil olunmuş qurumların balansında olan əmlakların digər dövlət orqanlarına təhvil verilməsi təmin edilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində dövlət əmlakının idarə edilməsində şəffaflıq və hesabatlılıq artırılmış, vətəndaş müraciətlərinin elektron qaydada baxılması təmin olunmuş, xidmətlərin keyfiyyəti və əlçatanlığı yüksəldilmişdir.

# “Rəqəmsal liderlik” proqramının növbəti görüşü Naxçıvanda baş tutub

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) təşəbbüsü ilə Naxçıvan şəhərində “Rəqəmsal liderlik” proqramının növbəti sessiyası baş tutub.




Naxçıvan Dövlət Universitetinin nəzdindəki Azərbaycan İnnovasiya Mərkəzində keçirilən görüşdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi də daxil olmaqla, 45 qurumdan 70-ə yaxın İT üzrə rəhbər şəxs iştirak edib. Sessiya zamanı dövlət qurumlarında Rəqəmsal Yol Xəritələrinin icra statusu, o cümlədən Naxçıvan Muxtar Respublikasında rəqəmsallaşma üzrə həyata keçirilən fəaliyyət müzakirə edilib.

Tədbir iştirakçılarını açılış nitqi ilə salamlayan İRİA-nın sədr müavini Şahin Əliyev bu il qəbul edilmiş “Rəqəmsal İnkişaf Konsepsiyası”nın prioritet istiqamətlərinə toxunaraq bildirib ki, ölkədə rəqəmsallaşmanın uğurlu icrası qurumlar arasında yaradılan etimad və əməkdaşlıq prinsipləri əsasında həyata keçirilir.



“Dövlət qurumlarının əməkdaşlığı nəticəsində son bir neçə ildə rəqəmsal hökumətə keçid sürətlənib – Rəqəmsal Sənəd Dövriyyəsi və Milli Məlumat Mübadiləsi sistemləri üzrə kağızsız əməliyyatların sayı əhəmiyyətli dərəcədə artıb, “mygov”un rəqəmsal həlləri sayəsində vətəndaşların dövlət xidmətlərindən istifadəsi rahatlaşıb”, – deyə o bildirib.

Sessiyanın davamında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Qoşqar Kamilli dövlət idarəçiliyində məlumatların toplanması, təhlili və qərarvermə üçün istifadəsini mümkün edən “smart-net.az” portalının təqdimatını edib. Naxçıvan Muxtar Respublikası RİNN-in şöbə müdiri Etibar Əjdərov tədbir iştirakçılarını muxtar respublikada rəqəmsallaşma üzrə cari vəziyyət haqqında məlumatlandırıb.

Daha sonra Naxçıvan Muxtar Respublikası RİNN-in Aparat rəhbəri Əziz Hümbətov çıxış edərək muxtar respublikada infrastruktur quruculuğu, qurumlar arasında yaradılmış elektron məlumat mübadilə sistemi, qurumlarda proqram təminatının lisenziyalaşdırılması və rəqəmsallaşma sahəsində görülən digər işlər haqqında məlumat verib. Ədliyyə Nazirliyinin idarə rəisi Qismət Qurbanov təmsil etdiyi nazirlikdə innovasiya və inkişaf istiqamətində görülən işlər barədə məruzə ilə çıxış edib.

Sessiyada, həmçinin İRİA-nın şöbə müdirləri İlham Salmanov və Hüseyn Məmmədov rəqəmsal idarəetmənin tənzimlənməsi, şöbə müdiri Həsənağa Əliyev Açıq Məlumatlar Portalı və departament müdiri Emil Rüstəmov “mygov” platformasındakı yeniliklərə dair təqdimatlarla çıxış ediblər.

Qeyd edək ki, Naxçıvan şəhərində baş tutan “Rəqəmsal liderlik” proqramı “BESTCOMP Group” şirkətinin tərəfdaşlığı ilə təşkil edilib. Proqram, ümumiyyətlə, rəqəmsal hökumətə sürətli keçidin təmin edilməsini, rəqəmsal hökumət və rəqəmsal innovasiyalar sahəsində beynəlxalq rəqabətliliyin artırılması, rəqəmsal hökumətin inkişafı və təşviqi üzrə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini təmin etmək, habelə dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində vahid koordinasiyanı həyata keçirmək məqsədilə keçirilir.

# Naxçıvanın yerli gəlirləri artır, dotasiyası azalır

***Düzgün struktur islahatları, ciddi maliyyə nəzarəti***

Naxçıvan Muxtar Respublikasında 3 il bundan öncə – 2022-ci ilin dekabr ayında yeni idarəetmə modeli nümayəndəlik institutunun yaradılması ötən dövrdə əldə olunan mühüm nailiyyətlər və keyfiyyət dəyişiklikləri ilə özünü göstərib. Xatırlatmaq yerinə düşər ki, Prezident İlham Əliyev Fuad Nəcəflini Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunması ilə bağlı qəbul edən zaman bir sıra vəzifələr qarşıya qoymuşdu: ***“Səlahiyyətli nümayəndə kimi Fuad Nəcəfli insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin”.***

Prezidentin tapşırıqlarının icrasına uyğun olaraq son 3 ildə görülən tədbirlər, o cümlədən də səmərəli idarəetmə strukturunun formalaşdırılması, dövlət təşkilatların mərkəzləşdirilməsi, maliyyə nəzarətinin gücləndirilməsi, vergi sahəsində islahatlar və ələlxüsus da, azad sahibkarlıq mühitinin yaradılması Naxçıvan Muxtar Respublikasının yerli gəlirlərinin artımını və paralel şəkildə ayrılan dotasiyanın həcminin azalmasını şərtləndirib. Dotasiyanın azaldılması qeyd etdiyimiz kimi, ilk növbədə, yeni idarəetmə strukturuna uyğun Naxçıvanda mövcud olan nazirliklərin, komitə və xidmətlərin baş idarəyə çevrilməsi, eləcə də bir çox təşkilatların maliyyə, təsərrüfat xərclərinin mərkəzdən qarşılanması ilə əlaqədardır. Nümunə üçün Naxçıvan Baş Gömrük İdarəsi, Naxçıvan Regional Miqrasiya Baş İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsi və digərlərini qeyd etmək olar.

Naxçıvana ayrılan dotasiyanın həcminin azaldılması məsələsində təşkilatlarda maliyyə siyasətinin düzgün aparılması, ayrılan vəsaitlərdən səmərəli istifadə, izafi xərclərin aradan qaldırılması mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən son 3 ildə dövlət maliyyəsinin idarə olunması, şəffaflığın artırılması və ayrılan vəsaitlərdən səmərəli istifadəyə nəzarətin gücləndirilməsi istiqamətində bir sıra mühüm islahatlar həyata keçirilib. İlk növbədə, büdcə prosesinin səmərəliliyinin artırılması məqsədilə planlaşdırma və icra mexanizmləri təkmilləşdirilib, nəticəyə əsaslanan büdcə prinsipi geniş tətbiq olunmağa başlanılıb. Büdcədən maliyyələşdirilən layihələr üzrə vəsaitlərin bölgüsü sosial-iqtisadi prioritetlərə uyğunlaşdırılıb, xərclərin məqsədyönlülüyünün qiymətləndirilməsi üçün yeni meyarlar müəyyən edilib.

Maliyyə intizamının möhkəmləndirilməsi məqsədilə Maliyyə Nazirliyinin nəzarət mexanizmləri gücləndirilib, maliyyə yoxlamaları üzrə fəaliyyət daha sistemli şəkildə qurulub. Son 3 il ərzində müxtəlif dövlət qurumlarında aparılan yoxlamalar nəticəsində vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarət güclənib, yoxlama nəticələrinə uyğun artıq xərclənib və ya dövlət əmlakından düzgün istifadə edilməmiş vəsaitlər barədə məlumatlar tədbir görülməsi üçün aidiyyəti qurumlara təqdim edilib. Bununla yanaşı, maliyyə pozuntularının qarşısının alınması üçün profilaktik tədbirlər görülüb, qurumların məsul şəxslərinin maliyyə savadlılığı artırılıb.

Rəqəmsal texnologiyaların tətbiqi nəticəsində maliyyə əməliyyatları üzrə hesabatlılıq və şəffaflıq daha da yüksəlib. Nazirlik tərəfindən yaradılan elektron məlumat bazası vasitəsilə büdcə xərclərinin icrası real vaxt rejimində izlənilir, bu da nəzarət proseslərini asanlaşdırır və şəffaf qərarvermə mühitini təmin edir.

Görülən tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında maliyyə intizamı daha da möhkəmlənib, dövlət vəsaitlərindən səmərəli istifadə səviyyəsi yüksəlib, büdcə prosesinin şəffaflığı və hesabatlılığı təmin olunub. Bu istiqamətdə aparılan islahatlar regionun sosial-iqtisadi inkişafının dayanıqlılığına və maliyyə sisteminin sabitliyinə mühüm töhfə verib. Reallaşdırılan tədbirlər özünü ilbəil dotasiyanın azalmasında göstərib. Nazirlikdən verilən məlumata görə, 2022-ci ildə Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində dotasiyanın ümumi həcmi 425,0 milyon manat idisə, 2023-cü ildə bu həcm 315,0 milyon manat, 2024-cü ildə isə 185,2 milyon manat səviyyəsində olub. Ümumilikdə, 2022-2024-cü illər dövründə Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində dotasiyanın həcmi 239,9 milyon manat və ya 56,4 faiz azalıb. Bu dinamika, sadəcə, riyazi-statistik göstərici deyil, həm də regionun fiskal müstəqilliyinin artdığını, iqtisadi potensialının genişləndiyini və yerli gəlirlərin büdcə sistemindəki rolunun əhəmiyyətli dərəcədə gücləndiyini nümayiş etdirir. Dotasiyanın azalması ilə paralel olaraq, yerli maliyyə mənbələrinin səfərbərliyi, vergi inzibatçılığının təkmilləşdirilməsi və maliyyə idarəçiliyinin səmərəliliyinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər öz real nəticələrini göstərməkdədir. Nəticə etibarilə, 2022-2024-cü illər üzrə müşahidə edilən bu tendensiya Naxçıvan Muxtar Respublikasında büdcə sisteminin daha dayanıqlı, balanslı və institusional baxımdan müstəqil əsaslar üzərində formalaşacağına dair güclü iqtisadi və idarəetmə əsasları yaradır.

2025-ci ilin ilk doqquz ayı üzrə göstəricilər Naxçıvan Muxtar Respublikasının maliyyə müstəqilliyinin gücləndirilməsi baxımından xüsusilə diqqətəlayiqdir. Qeyd edilən dövrdə muxtar respublika büdcəsinin gəlirləri 325 milyon 559 min 140 manat həcmində olub ki, bunun da 205 milyon 559 min 140 manatı və ya 63,1 faizi yerli yığımlar hesabına formalaşıb. Dotasiyanın həcmi isə 120 milyon manat və ya 36,9 faiz təşkil edib ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə (170 milyon 150 min manat) 50 milyon 150 min manat və ya 29,5 faiz azalma deməkdir. Qeyd etdiyimiz kimi, bu azalma tendensiyası, muxtar respublikanın büdcə gəlirlərinin tədricən daxili maliyyə mənbələri hesabına formalaşmağa başladığını göstərir. Başqa sözlə, yerli gəlir bazasının genişlənməsi, vergi və qeyri-vergi daxilolmalarının artması, eləcə də fiskal intizamın gücləndirilməsi Naxçıvanın büdcəsinin getdikcə daha çox öz resursları hesabına təmin olunmasına imkan verir.

***Azad sahibkarlıq mühiti yerli gəlirlərin artımında mühüm rol oynayır***

Naxçıvana dotasiyanın azaldılması maliyyə nəzarəti tədbirlərinin gücləndirilməsi ilə paralel, irəli sürülən təşəbbüslərin reallaşdırılması və sosial-iqtisadi inkişafa dair qəbul edilən Dövlət Proqramının icrası, azad sahibkarlıq mühitinin formalaşdırılması sayəsində onun yerli gəlirlərinin artırılması ilə də əlaqədardır. Yerli gəlirlərin artırılması məsələsində diqqətçəkən amil muxtar respublikada Vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılmasını nəzərdə tutan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın müvafiq yarımbəndinin vaxtından əvvəl tam icra olunmasını da qeyd etmək olar. Belə ki, reallaşdırılan iqtisadi islahatlar nəticəsində ölkəmizdə formalaşmış modern vergi inzibatçılığının və şəffaflaşma siyasətinin davamı olaraq Naxçıvan Muxtar Respublikasında vergilərin könüllü ödənilməsi sisteminin gücləndirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması, vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi və daha əlçatan olması, vergi orqanları ilə vergi ödəyiciləri arasında şəffaf münasibətlərin qurulması məqsədilə Naxçıvan, Şərur, Babək və Ordubad şəhərlərində Vergi ödəyicilərinə xidmət mərkəzləri istifadəyə verilib. 2024-cü ildə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinə xidmət mərkəzlərində, ümumilikdə, 44 min 388 şəxs qəbul edilib. Mərkəzlərdə vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu, qeydiyyat, bəyannamələr, cari vergi ödəmələri və digər məsələlərlə bağlı 59.004 xidmət göstərilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 13,4 faiz çoxdur. 2025-ci ilin yanvar-sentyabr aylarında isə Vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən, ümumilikdə, 33 min 110 şəxs qəbul edilib. Mərkəzlərdə vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu, qeydiyyat, bəyannamələr, cari vergi ödəmələri və s. məsələlərlə bağlı 44 min 450 xidmət göstərilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 6,99 faiz çoxdur.

Ötən dövrdə vergi sahəsində görülən işlərin fonunda dövriyyələrin şəffaflaşdırılması sahəsində aparılan işlər, gəlirlərin bəyanetmə səviyyəsinin və könüllü bəyanetmənin əhəmiyyətli dərəcədə qalxması, vergi inzibatçılığında həyata keçirilən islahatlar, iqtisadiyyatın ayrı-ayrı sektorlarında müşahidə edilən artım templəri Naxçıvanda vergi daxilolmalarının artımına səbəb olub. 2024-cü ildə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 226,6 milyon manatdan çox vergi daxil olub ki, bu da 2023-cü ilə nisbətən 37,6 faiz və ya 61,9 milyon manat çoxdur. Ötən il Naxçıvanda vergi daxilolmaları üzrə proqnoz 130,2 faiz icra edilib. 2025-ci ilin yanvar-sentyabr ayları ərzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 183,3 milyon manata yaxın vergi daxil olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 16,3 faiz və ya 25,7 milyon manat çoxdur. Qeyri-dövlət sektorundan daxilolmalar 128,2 milyon manat təşkil edib. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 24,4 milyon manat və ya 23,5 faiz artıb. Ödənilən vergilərin 69,9 faizi qeyri-dövlət sektorunun, 30,1 faizi isə dövlət sektorunun payına düşüb.

Muxtar respublikanın yerli gəlirlərinin artırılmasını şərtləndirən amillərdən biri də, sözsüz ki, azad sahibkarlıq mühitinin formalaşdırılmasıdır. Bu xüsusda son bir neçə ildə turizm və xidmət sektorunda baş verən canlanma proseslərini də qeyd etmək olar. Görülən tədbirlərin nəticəsi olaraq, ötən iki-üç ildə müxtəlifprofilli onlarla yeni istehsal və xidmət sahələri yaradılıb, kafelər, restoranlar fəaliyyətə başlayıb. Əlverişli biznes mühitinin formalaşdırılmasında əsas nüanslardan biri də səmərəli maliyyə dəstəyi, güzəştli kreditləşmənin təminatıdır. Bu xüsusda təkcə bir faktı diqqətə çəkək ki, cari ilin 9 ayında Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 114 layihənin maliyyələşdirilməsinə 11,6 milyon manat məbləğində güzəştli kredit vəsaiti ayrılıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 8,8 milyon manat və ya 4,2 dəfə çoxdur. Layihələrin sayı isə ötən ilin eyni dövrü ilə müqayisədə 4,5 dəfə artıb. Maliyyələşdirilmiş kreditlər hesabına 298 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda Naxçıvan Muxtar Respublikasında hər bir rayonun əmək və xammal ehtiyatlarından səmərəli istifadə yolu ilə yeni istehsal və xidmət sahələrinin yaradılması davam etdirilir. Dövlət maliyyə dəstəyi və özəl investisiyalar hesabına 2025-ci ilin yanvar-sentyabr ayları ərzində müxtəlif təyinatlı 107 istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb. Reallaşdırılan layihələr arasında, xüsusilə çörək və un məmulatları, mebel, tikinti materialları, içki və qida məhsulları istehsalı üzrə yeni müəssisələr xüsusi yer tutur. Hazırda muxtar respublika üzrə 90 layihə çərçivəsində işlər davam etdirilir. Onlardan 38-i yeni yaradılan, 52-si isə mövcud fəaliyyətin genişləndirilməsinə yönəlib. Bu ilin 9 ayında 600,4 min manat dəyərində texnika, texnoloji avadanlıq və qurğular idxal zamanı tətbiq olunan vergi və rüsumlardan azad olunub. Təqdim edilən təsdiqedici sənədlər əsasında Çin və Türkiyədən müasir texnoloji avadanlıqlar idxal edilib. Bu layihələr hesabına 130 yeni iş yerinin açılacağı nəzərdə tutulur.

Son 3 ildə həyata keçirilən islahatlar sayəsində əldə olunan nəticələr bir daha sübut edir ki, Naxçıvan Muxtar Respublikası ölkəmizin ayrılmaz parçası kimi böyük inkişaf yolunda inamla irəliləyir. Əminliklə demək olar ki, yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması və sosial-iqtisadi inkişafa dair Dövlət Proqramının uğurlu icrası sayəsində muxtar respublika həm mühüm nəqliyyat-logistika imkanları, həm də yüksək iqtisadi göstəriciləri ilə ölkə iqtisadiyyatında geniş paya sahib olacaq.

**✍ Nail ƏSGƏROV**



## "Şərq qapısı" qəzetinin kollektivi sərgi-satış yarmarkası ilə tanış olub



Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında məhdud fiziki imkanlı şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış yarmarkası keçirilir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində təşkil olunan yarmarkada 300-dən çox müəllifin 10 mindən artıq əl işi nümayiş etdirilir.

"Şərq qapısı" qəzetinin kollektivi də sərgi ilə tanış olub, iştirakçılarla söhbət edib və nümayiş olunan sənət nümunələrinə baxıb. Tədbir Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə həyata keçirilir və qadınların, eləcə də məhdud fiziki imkanlı şəxslərin istedadlarının üzə çıxarılmasına, sosial fəallıqlarının artırılmasına xidmət edir.

## Tanınmış dilçi alim, professor Mahirə Hüseynovanın 65 illik yubileyi qeyd edilib

*Oktyabrın 20-də Naxçıvan Dövlət Universitetində filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, Prezident təqaüdçüsü, tanınmış şairə Mahirə Hüseynovanın 65 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.*

Tədbirdən öncə universitetin Konservatoriyasının önündə "Şərur" Xalq Yallı Ansamblının ifasında yallı xalq rəqsləri təqdim olunub.





Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarovun moderatorluğunda keçirilən tədbirdə professor Mahirə Hüseynovanın həyatı, elmi və bədii yaradıcılığına dair məlumatlar diqqətə çatdırılıb.

Tədbirin rəsmi hissəsində açılış nitqi ilə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev dəyərli elm xadimi Mahirə Hüseynovanı zəngin elmi irsi, səmərəli pedaqoji fəaliyyəti və yüksək insani keyfiyyətləri ilə seçilən alim olaraq səciyyələndirib. Qeyd edilib ki, o, uzun illər ərzində Azərbaycan dilçiliyinin inkişafında xidmətləri olan dəyərli pedaqoq, tanınmış ictimai xadim və məhsuldar şairədir. Rektor Naxçıvan Dövlət Universitetinin fəxri professoru Mahirə Hüseynovaya ali təhsil ocağına verdiyi töhfələrə görə öz dərin təşəkkürlərini bildirib, həmçinin dəyərli alimin NDU-da keçirilən tədbirlərdə iştirakını əks etdirən foto və məlumatların yer aldığı xatirə kitabı və rəsm əsəri hədiyyə edib. Elbrus İsayev yubilyarı 65 illik yubileyi münasibətilə təbrik edib, cansağlığı və gələcək elmi fəaliyyətində uğurlar arzulayıb.

Sonra yubilyarın elmi və pedaqoji fəaliyyəti ilə bağlı məruzələr dinlənilib. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar Mahirə Hüseynovanın bədii yaradıcılığından nümunələri yada salaraq ideya, dil və üslub xüsusiyyətlərindən söz açıb. Filologiya üzrə elmlər doktoru, professor Sədaqət Həsənova dilçi alimin elmi-nəzəri baxışlarından danışıb, seçilmiş şeirlərini səsləndirərək yubilyarın müasir Azərbaycan filologiya elmində və poeziyasında öz dəsti-xəti ilə seçildiyini diqqətə çatdırıb. Filologiya üzrə fəlsəfə doktoru, dosent Aypara Behbudova isə bir çox elmi əsərlərin və bədii kitabların müəllifi olan Mahirə xanımın dilçilik elminə gətirdiyi yeniliklərdən bəhs edib, şeirlərindən parçalar səsləndirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın təbrik çıxışları dinlənilib, hədiyyələr təqdim olunub. Həmçinin AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası adından professor Mahirə Hüseynovanın çoxşaxəli elmi fəaliyyəti yüksək dəyərləndirilərək Fəxri fərmanlar təqdim olunub.

Azərbaycan Respublikasının "Qabaqcıl təhsil işçisi" döş nişanı, "Qızıl qələm" Media Mükafatı Laureatı, "İlin Alimi" Media Mükafatı Laureatı kimi bir çox diplom və mükafatlara layiq görülən dilçi professor Mahirə Hüseynova elmi, pedaqoji və bədii yaradıcılığına göstərilən yüksək diqqətə görə təşəkkürünü bildirib.

Tədbir universitetin tələbələrinin və "Turan" Ansamblının təqdimatında bədii proqramla davam edib. Sonda Azərbaycan Respublikasının Xalq artisti Gülyanaq Məmmədovanın tədbirdə iştirakı, "Mən bu ömrü elə belə yaşadım" və "Azərbaycan" mahnılarını ifa etməsi isə bütün tədbir iştirakçılarında xoş təəssürat yaradıb.

## Naxçıvanın turizm imkanlarının nümayiş etdirilməsi məqsədilə mediatur təşkil olunub

Oktyabrın 17-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə muxtar respublikaya mediatur təşkil edilib.



Mediaturun əsas məqsədi Naxçıvanın eko, mədəni, sağlamlıq kimi çeşidli turizm imkanlarının nümayiş etdirilməsi, turizm əhəmiyyətli məkanlarının geniş auditoriyaya tanıdılması, eləcə də bölgəyə turist səfərlərinin təşviq edilməsidir.

Mediatur çərçivəsində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, media nümayəndələri Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisində yerləşən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi, Batabat yaylağı, buradakı hayking marşrutları, həmçinin Naxçıvan şəhəri yaxınlığındakı "Duzdağ" Fizioterapiya Mərkəzinin fəaliyyəti və turizm potensialı ilə tanış olublar.

Qeyd olunub ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın Tədbirlər Planının icrasının təmin edilməsi məqsədilə Dövlət Turizm Agentliyinin "Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı etdirilməsi il bağlı 2025-2027-ci illər üzrə Fəaliyyət Planı" hazırlanıb.



Bu fəaliyyət planına uyğun olaraq Naxçıvan iqtisadi rayonu üzrə turizmin inkişafı, muxtar respublikada turizm infrastrukturunun yaxşılaşdırılması, o cümlədən müxtəlif turizm növlərinin (qış, kənd, eko və s.) inkişaf etdirilməsi, Naxçıvana xarici turoperatorların, xarici və yerli media nümayəndələrinin səfərlərinin təşkil edilməsi, turizm və rekreasiya zonalarının yaradılması, bölgənin turizm potensialının beynəlxalq auditoriyada tanıdılması və digər tədbirlər üzrə fəaliyyət davam etdirilir.

Naxçıvana səfər çərçivəsində "Əshabi-Kəhf" Dini-Mədəni Abidə Kompleksi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksi", "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Nuh Peyğəmbərin məzarüstü türbəsi və Qafqazın ən böyük məscidlərindən biri hesab olunan Heydər məscidi də ziyarət olunub.

Səfər müddətində media nümayəndələrinin sualları cavablandırılıb.

## Şəhid ailələri üçün tibbi aksiya keçirilib



18 oktyabr – Müstəqilliyimizin Bərpası Günündə və zəfərimizin 5-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikası İcra Hakimiyyətinin dəstəyi ilə Naxçıvan Sağlamlıq Mərkəzində şəhid ailələri üçün tibbi aksiya təşkil olunub.

Aksiyanın məqsədi şəhid ailələrinin sağlamlığının qorunması, onlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması və sosial qayğının davamlı təmin edilməsidir.



Tədbir çərçivəsində şəhid ailələrinin üzvləri müxtəlif ixtisaslı həkimlər tərəfindən müayinə olunub, laborator və diaqnostik xidmətlərdən keçiblər. Aksiya iştirakçılarına fərdi sağlamlıqla bağlı məsləhətlər verilib, profilaktik tədbirlər barədə məlumatlar təqdim olunub.

Şəhid ailələri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

## Ordubadda abidələrin inventarizasiyası aparılır



Muxtar respublikada yerləşən daşınmaz mədəni irs nümunələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi və qorunması Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. Daşınmaz mədəni sərvətlərin müəyyən edilməsi və qeydiyyata alınması məqsədilə yaradılmış işçi qrupu tərəfindən muxtar respublikadakı abidələrin inventarizasiyası işi davam etdirilir.

16-17 oktyabr tarixlərdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşları Ordubad rayonu ərazisində yerləşən abidələrə baxış keçiriblər.

İşçi qrupu tərəfindən Ordubad şəhəri, eləcə də rayonun Xanağa, Vənənd, Ağrı və Dizə kəndlərində yerləşən abidələrin mövcud vəziyyəti yerində qiymətləndirilib, fotoşəkilləri çəkilib və koordinatları müəyyən olunub.

Qeyd edək ki, toplanmış məlumatlar əsasında abidələr haqqında ekspertiza aktları hazırlanacaq. Hazırlanmış aktlar müvafiq rəy alındıqdan sonra təkliflərlə birgə aidiyyəti üzrə təqdim ediləcək.

## Bu il bir sıra yerli əhəmiyyətli və kənddaxili yollar əsaslı təmir olunub



Cari ildə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində bir neçə yerli əhəmiyyətli və kənddaxili avtomobil yollarında əsaslı təmir işləri aparılıb.

Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, ilin ötən dövründə uzunluğu 6,2 kilometr olan Babək rayonu Nəhəcir-Göynük əsas və uzunluğu 8,7 kilometr olan Nəhəcir-Göynük kənddaxili, uzunluğu 5,2 kilometr olan Şərur şəhərdaxili, uzunluğu 3,3 kilometr olan Culfa rayonun Gal və Şurud kənddaxili avtomobil yollarında işlər yekunlaşdırılaraq vətəndaşların istifadəsinə verilib.

Təmir zamanı torpaq işləri aparılıb, yolun alt təbəqəsini möhkəmləndirmək üçün əraziyə qum-çınqıl materialı verilib. Yağış sularını kənarlaşdırmaq üçün yol kənarlarına beton kanal çəkilib və su keçidləri quraşdırılıb. Hərəkətin daha rahat olması üçün yola asfalt örtüyü salınıb.



# Zəfər yolunun Vətən fədaisi



Evə qayıdarkən hər dəfə keçdiyim o yol və həmin qapı... Qapıda üzümə baxan bir sima və diqqətimdən heç vaxt yayınmayan həmin o nurani baxışlar. O baxışlar ki, sanki hər kəsə səssizcə xitab edərək: "Mən Vətən üçün getdim, siz də Vətəni yaşadın", – deyir. Qapıya asılmış şəkil bir ananın qəlbində gizlənən yanğını, şəkildəki baxışlar isə igidliyin izlərini daşıyır. Evdə, həmin şəkildə, onunla yanaşı asılan bayraqda əbədiyyətə qovuşmuş bir qəhrəmanın – şəhid Məmmədzadə Pərvizin izləri yaşayır.

Məmmədzadə Pərviz Zahid oğlu 2001-ci il 31 iyulda Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində anadan olub. Qaraçuq kənd 9 nömrəli tam orta məktəbdə 8 il təhsil alan Pərviz, musiqiyə də maraq göstərir. Naxçıvan Şəhər 5 nömrəli Uşaq Musiqi Məktəbində qarmon çalmağı öyrənir. İntizamı, məsuliyyəti və zəhmətkeşliyi ilə fərqlənən qəhrəman daha böyük arzuların arxasınca getməyi qərara alır. Və 2015-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olur. 2018-ci ildə isə bu liseydən məzun olaraq Bakıda yerləşən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki hərbi institut) təhsilini davam etdirir. 2020-ci ilin sentyabrında Vətən müharibəsinin başlanması bir çoxumuz kimi Pərvizin də taleyinin axarını dəyişir. Bir vaxtlar həzin musiqi alətini səsləndirən əllər döyüş meydanında silah tutaraq düşməni cavab atəşi ilə susdurur.

Onun ömür yolunun qəhrəmanlıq səhifələrini daha yaxşı öyrənmək üçün doğulub böyüdüyü evə yollandıq.

Bizi şəhidin nənəsi və anası qarşılayır, qəhrəmanın ocağına dəvət edir. Evlərinə qədəm qoyduğum ilk andan hiss olunurdu ki, Pərviz Vətənə sonsuz sevgi və yüksək mənəviyyata sahib bir ailədə böyüyüb. Anası Pərvanə xanımın baxışlarında dərin kədəri, təmkinli danışığında və dəyanətli duruşunda isə övladını Vətənə qurban verən qəhrəman bir ananın məğrurluğunu hiss etmək olurdu.

Ömrünün gənc çağında canını Vətənə fəda edən Pərvizin nənəsi Məhluqə xanım bizi elə mehribanlıqla qarşıladı ki, özümüzü sanki burada qonaq deyil, illərin sakini kimi hiss etdik. Onun gözlərində illərin ağrısını da, güvənini də görmək olardı. Məhluqə xanım bizi Pərvizə aid olan otağa apardı.

Otaqda hər şey onun yadigarı idi: hərbi geyimi, çəkmələri, məktub kimi yazdığı qeydlər, şəkillər... Ailəsi üçün sanki bu otaq bir dünyadır: Pərvizin dünyası.

Pərvanə xanım deyir ki, həyatlarındakı bayraq daim dalğalanırdı. Pərviz uşaq yaşlarından bayrağa xüsusi sevgi ilə bağlanmışdı. O, bayrağı təkcə sevmirdi, ona müqəddəs bir əmanət kimi yanaşırdı. Hər dəfə qarşısından keçəndə dayanıb, əyilərək öpürdü. Hələ uşaq yaşlarında məktəbdəki müəlliminə: "Oxuyub hərbçi olacam, torpaqları alıb şəhadətə yüksələcəm", – deyirmiş. Bu sözləri dilə gətirməklə kifayətlənməyib, onu xatirə dəftərinə də qeyd edib. Qəlbindəki bu məhəbbət və məsuliyyət hissi o vaxtdan onun ruhunda Vətən sevgisi ilə birləşirdi. Və sonda onu bayrağın ucalığı uğrunda savaşan igidə və qoruyucusuna çevirdi. Bir zamanlar sevgi ilə öpdüyü həmin o bayraq da bu gün onu ehtiramla "yad edir".

Pərvanə xanım qeyd edir ki, son dəfə onunla danışanda səsində həsrət əvəzinə ümid vardı. O danışıqdan sonra Pərvizdən bir daha səs-soraq gəlmir. Pərvanə xanım ana qəlbi ilə sanki nə isə hiss edirmiş. Nə baş verdiyini bilmədən, bir həftə ərzində ağır xəstələnir. Elə bil, bədəni Pərvizin yoxluğunu duyub, ruhundan xəbər almışdı. Vətən uğrunda vuruşan silahdaşları tək buraxmayıb, yenidən döyüş bölgəsinə qayıdıb. Həmin vaxt mənfur düşmən Pərvizi və silah yoldaşlarını mühasirəyə alır. On yeddi gün boyunca onlardan heç bir xəbər gəlmir.

Və… 6 noyabr. Xocavəndin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə Pərviz qəhrəmancasına şəhid olur. Göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

**Səmayə RƏSULOVA**
*Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

# Zəfər tarixi

## Şəhidlik şərəfli ölümdən sonrakı həyatdır



... Saday Məmmədəliyev doğulub boya-başa çatdığı Ordubad rayonunun Darkənd yaşayış məntəqəsi sakinlərinin qəlbində özünə əbədi yer qazanıb. Təkcə onlarınmı? Xeyr. Azərbaycan xalqı bu gün onu azadlıq mücadiləmizin şəhid qəhrəmanlarından biri kimi tanıyır, minnətdarlıqla xatırlayır, ruhu qarşısında baş əyir.

Onun son mənzilə yola salınması anları xatırlayıram. Darkənd qəbiristanlığında muxtar respublikanın bütün rayonlarından gəlmiş insanlarla yanaşı, Sadayın döyüş yoldaşları da vardı. Onlardan birinin Sadayın məzarı önündə dedikləri hər birimizdə qürur doğurdu: "Şəhidlər ölməz, Vətən bölünməz. Saday da bu həqiqəti sübut etdi. Sübut etdi ki, Azərbaycan belə igidlər yurdudur. Onların torpağına əl uzadanları məğlub bizə igidlər. Bu gün hər birimiz Saday və Saday kimi qəhrəman şəhidlərimizlə fəxr edirik".

...Mən orta məktəbdə müəllim işləyərkən hələ azyaşlı idi. Məktəbdə təsərrüfat müdiri işləyən Fatma nənəsi əlindən tutub hərdənbir məktəbə gətirərdi. Bir gün soruşdum: "Böyüyəndə kim olacaqsan?" Əli ilə məktəbin formada olan hərbi rəhbərini göstərdi və dedi: "Əsgər olacağam".

...O illərdən nə qədər ötüb. Saday böyüdü, orta məktəbi bitirdi, hərbi xidmətini uğurla başa vurdu. Ancaq hərbiyə marağı yenidən onu həmin formanı geyinməyə sövq edirdi...

Anası Məhəbbət xanımın söhbəti: "Dedim ki, ay oğul, axı bizim nəsildə hərbçi olmayıb". O isə inadından dönmədi. Bircə sözü ilə bu gün təskinlik tapıram: "Ana, ermənilər haqqında, onların bizə qarşı münasibətləri barədə nə qədər danışmısan mənə? Elə son illərdə özümün gördüklərim kifayətdir. Ermənilərin işğal altında saxladıqları torpaqlarımızı kimsə almalıdır, ya yox?"

Sözlərində böyük həqiqət olduğundan dinmədim. O da dediyini etdi. Bir ilə yaxın idi ki, əyninə forma geyinmişdi. Hərbiyə getməyini, bayaq da dedim, istəməsəm də, formada görəndə elə qürurlanırdım ki... Evləndirmək istəyirdik. Qarabağa göndəriləcəklərini deyəndə düşündüm ki, gedib qayıdar, toyunu edərik. Getdi və şəhid kimi qayıtdı. Qədim Şuşamızın alınmasında "uf" demədən özünü ölümün pəncəsinə atdı. "Təki Vətən sağ olsun", – deyə şirin canından keçdi. Bu gün bütün ölkəmiz şəhidlərimizlə qürur duyur, çünki ermənilər üzərində qazandığımız tarixi Qələbəyə məhz onların qəhrəmanlığı, torpağa məhəbbəti, yurda sevgisi ilə nail olmuşuq..."

...Anası Məhəbbət xanımı başa düşmək çətin deyil – oğul itirib. Ancaq söhbətində əsl Azərbaycan qadınına məxsus qürur hissi duyuram: "Elə təkcə muxtar respublikamıza neçə igidimiz şəhid kimi qayıdıb. Saday da onlardan biri. Bu gün bütün xalqımız sevindirən odur ki, mənfurları bir də torpaqlarımızda görməyəcəyik. Süfrəmizin çörəyi ilə böyüyən nankorların zəbt etdikləri, dağıtdıqları torpaqlarımız belə qəhrəman övladlarımızın şücaəti ilə azad edildi".

Orta məktəbdə Sadaya riyaziyyat fənnini tədris edən Gündüz Babayev öz sevimli şagirdini minnətdarlıqla xatırlayır: "Sinifdə neçə şagird varsa, bir o qədər də xarakter var. Saday tamamilə başqa xarakterə malik idi. Zahirən sakit, dinməz. Sözü düz deyən. Yoldaşcanlı. Vətənpərvər. Tənəffüslərdə dəfələrlə müşahidə etmişdim ki, sinif yoldaşları ilə birlikdə gəzişirlər. Yoldaşları deyib-gülür, nəyinsə mübahisəsin edir, o isə çox sakitdir, gözlərini bir nöqtəyə zilləyib nə haqqındasa düşünür. Şəhidlik zirvəsinə ucaldığını eşidəndə fikirləşdim ki, onun qəlbindən nələr keçirmiş... Əsl qəhrəman məhz beləlləri olur, öz qəhrəmanlığını sözdə yox, əməldə göstərir".

Yadıma gözəl şairimiz Xanəli Kərimlinin misraları düşür:

*Bir çiçək ətri də Vətən ətridir –*
*O duyğu qəlbinə sığışsa əgər.*
*Onda görərsən ki babalar haqmış –*
*Bu torpaq uğrunda ölməyə dəyər.*

Şəhid Məmmədəliyev Saday Rza oğlu "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə","Şuşanın azad olunmasına görə","Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Bizə bu zəfəri verən Saday, ruhun şad olsun!

**Muxtar MƏMMƏDOV**

# Şəhid məzarı and yerimizdir



Gözəl bir payız səhəri doğulduğu torpaqdan yüzlərlə kilometr uzaqda "Öncə Vətəndir", – deyib canından keçən igid oğullarımızdan birinin – şanlı Vətən zəfərinin şəhidi Məmməd Zamanlının məzarı başında dayanmışam. Şəhidin gənc üzünə, gülən gözlərinə baxdıqca dərin bir kədər bürüsə də məni, tezliklə bu kədər qürurla əvəz olunur və deyirəm ki, şəhidim, canından keçdiyin o yerlərdə bilirsənmi indi nələr var? Getdim, gördüm, Azərbaycan əsgəri keşik çəkir, Vətənin üçrəngli bayrağı dalğalanır o dağlarda. Artıq beş ildir ki, illərlə həsrət qaldığı torpaqları əkib-becərir, gecələri isə öz doğma ocaqlarında rahat ömür sürür Laçının, Zəngilanın sakinləri... Artıq orada xoş günlər yaşanır. Düşmən gülləsindən uzaq yaşayış yerləri gülüstana çevrilib, beş ildir ki, bayram tonqalı qalanır Şuşada, Zəngilanda. Sakinlər hər gün bu gözəl səbahları onlara bəxş edən şəhidlərimizə Tanrıdan rəhmət diləyir.

Hələ bu harasıdır? Sənə bir müjdəm də var! Vətən savaşındakı döyüşlərindən sonra 2023-cü ilin sentyabr ayında cəmi 23 saat 44 dəqiqəyə müzəffər Ordumuz Qarabağdakı mənfurların qalıqlarını da məhv etdi. Xocalıdan, Ağdərədən işğalçının izi birdəfəlik silindi, müqəddəs "Quran" səsi eşidildi, ən uca zirvəyə Azərbaycan Bayrağı sancıldı. Həmin gün qələbə zəfəri yaşamağımız xalqımızın bir an belə düşünmədən canını Vətəni üçün qurban verməyə hazır olan sənin kimi igid oğullarımızın davamçılarının sayəsində oldu.

Şəhidim, canından keçdiyin Vətən göz bəbəyi kimi qorunur. Daha nə deyim sənə, şəhidim? Vətən üçün min canı olsa, verə biləcək şəhidim. Vətən həmişə şəhidləri ilə var olur. Sən heç nəyi düşünmədən sipər etdin öz canını düşmənlərə. Və bu gün başımızın üzərində dalğalanan bu bayraq sənin kimi oğulların canı bahasına ucalır. Hər bir gəncimiz üçün məzarlarınız and yerinə çevrilib, onlar bu məzarlara müqəddəs ziyarətgah kimi baxır, məzarlar önündə torpaqlarımızı göz bəbəyi kimi qoruyacaqlarına and içirlər. Şəhidim, səninlə təkcə ailən yox, bütün Azərbaycan xalqı qürur duyur. Sinədaşını bəzəyən "Azərbaycan Bayrağı" ordenini, "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medallarını görən hər kəs sənin necə bir qəhrəman oğul olduğuna şahidlik edir.

Qəhrəmanın məzarı başından ayrılanda baxışlarında qürur görürəm. Özümə: "Fəxr duy, yurdumun igid oğlu", – deyirəm, rahat uyu, igidlər yurdunun mərd əsgəri, uğrunda canını verdiyin o Vətən torpağı üzərində artıq Azərbaycan əsgəri keşik çəkir. Qarabağın azad olunması yolunda Cocuq Mərcanlıdan, Talış yüksəkliyindən başlayıb Qızılqaya zirvəsinə doğru yol alan zəfər yürüşümüz Şuşada tamamlandı. Azərbaycan Ordusu öz qüdrətini bir daha dünyaya nümayiş etdirdi. Hər kəs bir daha gördü ki, bu xalqın, bu millətin hər bir övladı istənilən anda irəli atılaraq düşmənə qalib gəlməyə qadirdir. Mənfur düşmən öz qanında boğuldu, sənin və sənin kimi yüzlərlə şəhidimizin qisası alındı. Və düşmən bir daha anladı ki, hər qarış şəhid qanı ilə sulanan bu torpağın bir qarışı belə güzəştə gedilməyəcək. Sənin kimi qəhrəmanlar yetirən Vətən heç vaxt məğlub ola bilməz.

**"Şərq qapısı"**

# Vətən savaşının yaddaşlarda saldığı izlər



Vətən müharibəsi qazisi, Kəngərli rayonunun Qarabağlar kəndində dünyaya gələn Məhəmmədəli Hüseynzadə ilə söhbət edərkən baxışlarından, səsinin titrəməsindən həmin günlərin izləri açıq-aşkar hiss etmək olurdu. Danışmaqda çətinlik çəkirdi, sanki hər bir an yenidən gözlərinin önündə canlanırdı.

"Vətən müharibəsi başlayanda xüsusi təyinatlı, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi orduda xidmət edirdim. Hər bir azərbaycanlı hərbçi kimi mən də torpaqlarımızı qorumaq üçün silaha sarıldım. Döyüş zamanı yadımdan çıxmayan ən təsirli an döyüş yoldaşlarımın şəhid olması idi. Ancaq biz həm torpaqlarımızı azad etmək üçün, həm də şəhid qardaşlarımızın qisasını almaq üçün irəliləməli idik. Biz onların başladığı işi sona çatdırdıq, işğal altında olan torpaqlarımızı geri qaytardıq".

Məhəmmədəli bu qələbənin əsas səbəbini ordu və xalqın gücündə görür: "Qazandığımız zəfərin ən mühüm səbəbi Azərbaycanın güclü ordusunun olmasıdır. Mən Ali Baş Komandanımız və Vətənimin məğrur insanları ilə fəxr edirəm. 30 ildən sonra torpaqlarımıza qovuşmaq və üçrəngli bayrağımızı Şuşada, Zəngilanda, Qubadlıda yenidən dalğalandırmaq hər bir döyüşçü üçün qürur mənbəyidir".

Vətən savaşının igid əsgəri əlavə edir: "Psixoloji olaraq çətinliklər yaşadım. Sağlamlığıma görə işlə təmin oluna bilmədim, amma dövlətimiz məni ev və avtomobillə təmin etdi. Ən əsası isə cəmiyyətimizdə qazilərə qarşı hörmət və qayğı görmək qürur verir. Bu gün Vətən üçün canından keçən hər bir hərbçi öz müstəqil, suveren Vətəni Azərbaycanla qürur duyur. Hər birimiz fəxr edirik ki, biz azərbaycanlıyıq".

Qeyd edək ki, Vətən savaşında göstərdiyi şücaətə görə o, "Vətən müharibəsi iştirakçısı", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətən savaşında qazanılan zəfər təkcə xalqımızın yox, Cənubi Qafqazın da taleyini dəyişdi. Bu xalq, bu Vətən onun üçün canından və sağlamlığından keçən oğullarını heç vaxt unutmayacaq.

**Zəhra VƏLİYEVA**

## Zəfər yolu

# Qarabağda ucalan abidələr bu torpağın əsl sahibi olduğumuzu bir daha sübut edir



***"Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla – yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk"***, – deyən xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə bu abidələrin mühafizə, bərpa, konservasiya, tədqiqat və təbliğat işlərinin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoymuşdur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin və şanlı Azərbaycan Ordusunun şücaəti sayəsində 30 illik erməni işğalından azad edilən Qarabağda Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi talan edib, dağıdıblar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Qarabağda və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli – 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi, 40 mindən artıq eksponatın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri məhv edilmişdir. İşğaldan azad edilən ərazilərimizdə artıq beş ildir, infrastrukturun yenidən qurulması, yaşayış sahələrinin yaradılması ilə yanaşı, düşmənin yerləyeksan etdiyi mədəni, tarixi irsimizin bərpası da diqqətdə saxlanılır, bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən önəmli layihələr gerçəkləşdirilir. Fondun əsas prioritetlərindən biri də məhz tarixi, dini və mədəni abidələrin qorunmasıdır.





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də rəsmi "Instagram" səhifəsindəki paylaşımında yazırdı: "Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır".

Həmin tarixdən bərpa layihələrinə yerli mütəxəssislərlə yanaşı, Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən olan mütəxəssislər də öz töhfələrini verməkdədir. Təkcə Şuşa şəhərində 150-dən çox tarixi abidə mövcuddur. Bu abidələrin hər birinin bərpası xüsusi önəm daşıyır. Prezident İlham Əliyevin Şuşanın mədəniyyət paytaxtı elan edilməsi barədə Sərəncam imzalaması şəhərin xüsusi əhəmiyyətə malik olduğunu bir daha göstərir. Buna görə də Şuşanın bərpası və yenidənqurulması xüsusi həssaslıqla aparılır. Şuşa şəhərində Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa, Saatlı məscidlərinin, Mehmandarovların malikanə kompleksinin bərpası Heydər Əliyev Fondunun işğaldan azad olunmuş ərazilərdə bərpa etdiyi ilk tarixi abidələr olmaqla yanaşı, fondun tarixi kimliyimizə göstərdiyi diqqət və qayğısının ən bariz nümunəsidir.

Qarabağın işğaldan azad edilməsi təkcə yurd-yuvasından didərgin düşən insanların yox, tariximizin də özünə qayıdışı oldu. İllərlə düşmən tapdağı altında qalıb düşmənin vəhşiliyinə tuş gələn bu qədim Azərbaycan torpağında 1990-cı ilə kimi 706 tarixi və mədəniyyət abidəsi olub. Bu abidələrdən 11-i beynəlxalq, 240-ı dövlət, 455-i yerli əhəmiyyət daşıyıb. Lakin Qarabağın işğal edilməsi nəticəsində 22 muzey, 4,6 milyon kitabdan ibarət 927 kitabxana, 85 musiqi məktəbi, 4 teatr, 2 konsert zalı, 4 incəsənət qalereyası və 808 istirahət məkanı məhv edilib.

Ağdam şəhərində olan e.ə. II minilliyin sonlarına və Orta Tunc dövrünə aid dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi – Üzərliktəpə ermənilər tərəfindən yandırılaraq məhv edilib. Kəngərli kəndindəki XIV əsrə aid daş abidələr, Xan qızı Natəvanın və oğlunun şərəfinə tikilmiş türbə, Şahbulaq qalası, Papravənd kəndində yerləşən Xanoğlu türbəsi, məscid və digər tarixi-memarlıq abidələri də işğal dövründə ermənilər tərəfindən məhv edilib. Memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən 1868-1870-ci illərdə tikilmiş Ağdam Cümə məscidi də 1993-cü ildə ermənilərin rayonu işğalı zamanı darmadağın olub. Şuşa şəhərində vəziyyət daha da ürək yandırırdı. Şuşa şəhərinin tarixi muzeyi, Üzeyir Hacıbəyov, Bülbül, Mir Möhsün Nəvvabın Xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı, Rəsm Qalereyası və digər tarixi binalar dağıdılmışdı.

Ermənistanın 30 illik işğalı dövründə Qarabağ bölgəsində olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədilib. Bu abidələr ya dağılaraq bərbad vəziyyətə salınıb, ya da tamamilə məhv edilib. Qarabağ ərazisində olan 67 məsciddən 63-nü ermənilər yerləyeksan ediblər. Qalan 4 məsciddən 3-nə isə ciddi ziyan vurulub. Yeganə 1 məscid, Qarabağın incisi Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidində isə bəzi dəyişiklik edərək bu abidənin Azərbaycana aid olmadığını sübut etməyə çalışıblar. Torpaqlarımız işğaldan azad edildikdən sonra bölgənin yenidən tikilib-qurulması istiqamətində vacib sahələrdən biri də dini abidələrimizin tikinti-bərpa işləridir. Artıq beş ilə yaxındır ki, Qarabağ ərazisində böyük tikinti-quruculuq işləri aparılır. Kəndlər, şəhərlər yenidən salınır. Bütün lazımi infrastrukturlar qurulur. İnsanlar öz yurd-yuvalarına qayıdırlar.

İşğaldan azad olunmuş ərazilərdə dini məbədlərimizin bərpasına dövlət səviyyəsində ciddi önəm verilir. Heydər Əliyev Fondu dini və tarixi abidələrin tikinti-təmir işlərində xüsusi rol oynayır. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilk günlərdən azad Qarabağda məscidlərimizi ziyarət etmişlər. Dövlət başçısı düşmənin xarabaya çevirdiyi Ağdam məscidinə ayaqyalın girərək düşmənə və onun havadarlarına layiqli cavabı verdi. Ermənilərin dağıtdığı ziyarətgahlarımızın, qəbirüstü abidələrimizin bərpası üçün tapşırıqlar verdi. 44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra Qarabağda azərbaycanlılar öz doğmalarının dağılmış qəbirlərini ziyarət edə bildilər. İyirmi yeddi ildən sonra Ağdam Cümə məscidində yenidən azan səsləndi. Ölkə başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva məscidi ziyarət edərək dövlət başçısının Məkkədən gətirdiyi müqəddəs "Qurani-Kərim"i məscidə hədiyyə etdilər.

İşğal dövründə Qubadlı rayonunun Məmər kəndində XVIII əsrdə inşa edilmiş məscid, həmçinin rayonun Dondarlı, Dəmirçilər kəndlərində olan məscidlərimiz də məhv edilib. Dağılmış Zəngilan məscidində isə erməni vandalları donuz saxlayıblar. Dinimizdə murdar sayılan bu heyvanın məscidlərimizdə saxlanılması təkcə bizə yox, bütün İslam aləminə təhqirdir. Tanrı bizim haqqımızı haqq elan etdi və biz torpağımızı geri aldıq. Həmin məscidlər də yenidən qurulub Heydər Əliyev Fondunun dəstəyi ilə. Qarabağ azad olunandan sonra biz gördük və şahid olduq ki, düşmənin bu dünyadakı heç bir dinə hörməti yoxdur. Əgər belə olmasa idi, erməni vandalları Qarabağda yaşayan azlıqlara aid olan xristian dini ziyarətgahlarına qarşı da vəhşilik etməzdilər. Onlar işğal dövründə 1894-cü ildə Xocavənd rayonunda inşa edilmiş Rus Pravoslav kilsəsini belə dağıtmışlar. Rayonun Tuğ kəndində yerləşən İohann kilsəsində də ermənilər saxtakarlıqla bəzi dəyişikliklərə cəhd ediblər. Eyni zamanda Laçın rayonunda yerləşən Alban (Qafqaz) Apostol Müstəqil kilsəsində də alçaq niyyətlərini həyata keçiriblər.

Tolerant Azərbaycan dövləti bütün dinlərə hörmətlə yanaşdığı kimi, onun dini abidələrinə də diqqət göstərir. İndi işğaldan azad olunmuş bütün ərazilərimizdə dini abidələrimiz tikilib yenidən qurulur. Tuğ kəndindəki qədim Alban məbədi, Laçın rayonundakı "Ağoğlan" monastrı da Azərbaycan hökuməti tərəfindən bərpa edilərək öz sahiblərinin ixtiyarına verilmişdir.

Ulu Öndərin adını daşıyan fondun işğaldan azad olunan ərazilərdəki fəaliyyəti nəticəsində işğal dövründə dağıdılmış tarixi abidələrimizin milli kimliyi son beş ildə özünə qaytarılır. Vaxtilə düşmən vandallığı ilə xarabaya dönən məscidlərimizdən yüksələn azan səsi düşmənin qulağını kar edir. Yenidən həyata dönən Qarabağda ucalan tarixi abidələr bu yerlərin əbədi sahibi olduğumuzu bir daha sübut edir.

**"Şərq qapısı"**

## Zəfərin ruhu – torpaqla danışan səslər

Otuz ilə yaxın bir həsrət… Bu illərdə sanki torpaq da nəfəsini içinə çəkmişdi. Dağlar susurdu, çaylar sükuta qərq olmuşdu, xarıbülbül sanki daha açmaq istəmirdi. Hər daşın, hər ağacın içində gizlənmiş bir fəryad vardı: "Mən əsirəm, amma ümidlərim ölməyib". O fəryadı Azərbaycan əsgəri eşidirdi... Silahın səsindən əvvəl eşidirdi; torpağın fəryadını duyurdu... Ona görə də Vətən çağıranda hər bir əsgər ayağa qalxaraq qanını, canını, gəncliyini, gülüşünü bircə kəlmə üçün fəda etdi: "Torpaq!" Bəli, bu Zəfər, sadəcə, bir ordunun qələbəsi deyil. Bu Zəfər daşların, qayaların, çinarların qələbəsidir. Əsir torpağın azad nəfəsi, əsarətdə böyüyən çiçəklərin göz yaşıdır. İllərlə lal qalan dağlar indi danışır: "Mən azadam!"

İllərlə dünyaya sual ünvanladıq: "Haqq haradadır? Ədalət nə vaxt gələcək?" O suallar cavabsız qalırdı. Dünya susurdu, beynəlxalq tribunalardan, sadəcə, boş bəyanatlar gəlirdi... Və bir gün Azərbaycan özü cavab oldu. Ədalətin səsi bayrağın Şuşada dalğalanması idi. Haqqın səsi əsgərin addımı idi. Zəfər Günü bizə öyrətdi ki, heç kim bizim haqqımızı bərpa etməyəcək. Heç bir yad əllər torpağımızı bizə qaytarmayacaq. Biz öz gücümüzə, öz birliyimizə arxalanaraq torpağı geri almalıydıq və aldıq! Şuşa azad ediləndə külək başqa əsdi. Dağların sinəsindən elə bir səs yüksəldi ki, sanki xarıbülbül qulağımıza dedi: "Mən azadam!" Şuşa Qarabağın ürəyi idi, əsir ürək azad olanda bədən də dirildi. Cıdır düzündə əsgərin ayaq səsləri əks-səda verəndə, o an tarix geri dönüb baxdı. Vaqifin ruhu güldü, Bülbülün səsi yenidən dağlara yayıldı, Natəvanın gözləri yaşardı. Çünki Şuşa təkcə şəhər deyildi, millətin qəlbinin döyüntüsü idi. Bir anlıq düşünək: illərlə yad əllərdə olan Şuşa qalası yenidən öz sahiblərinə qayıdanda, yalnız daş divarlar yox, tarix də dirildi. Bu qələbə, sadəcə, bir coğrafiyanın deyil, bir millətin ruhunun qurtuluşu idi.

Döyüşlər gedərkən səngərdə əsgərin əli silahda, anasının əli isə səcdədə idi. Bir millət sanki eyni ürəklə döyünürdü. O günlərdə hər evdə dua vardı, hər qəlbdə ümid, gözlərdə həyəcan. Əsgər ön cəbhədə vuruşurdu, arxa cəbhədə isə xalq bütün varlığı ilə əsgərin yanında idi. Bir-birindən xəbəri olmayan minlərlə insan eyni anda eyni söz deyirdi: "Qarabağ Azərbaycandır!" Bu birlik Zəfərin möcüzəsini yaratdı. Bu gün hər kəs əminliklə deyə bilər: dövlət, xalq və ordunun vəhdəti hər cür divarı yıxa bilir.

Bu gün azad edilmiş torpaqlarda həyat yenidən başlayır. Köçkün illərlə həsrət qaldığı kəndinə dönür. Uşaqlar yeni məktəblərdə təhsil alır, analar evlərinin ocağında çörək qoxusunu hiss edəcək və edir, babalar çinar kölgəsində nağıl danışacaq və danışır. O torpaqlarda böyüyən hər körpə artıq əsirlik hekayəsi eşitməyəcək. Onların ilk sözləri "qaçqınlıq", "didərginlik" olmayacaq. Onlar öz Vətənlərində böyüyəcək, öz torpaqlarında güləcək, öz yurdlarında toy edəcəklər. Bu, Zəfərin möcüzəsidir. Hər yeni tikilən ev, hər bərpa olunan kənd, hər salınan yol şəhidlərin ruhuna ən böyük dua, xalqımızın qəlbində ən böyük təsəllidir.

8 noyabr təkcə bir tarix deyil, xalqın yaddaşına həkk olunmuş əbədi anddır. Bu andı unutmaq olmaz, çünki şəhidlərin qanı ilə yazılıb. Hər yeni nəsil bilməlidir ki, bu torpaq, sadəcə, coğrafiya deyil, şəhidlərin qanı, anaların gözyaşı, qazilərin yarası ilə möhkəmlənmiş müqəddəs Vətəndir. 8 Noyabr – Zəfər Günü. Məhz bu gün Azərbaycan xalqı başı dik, alnıaçıq şəkildə tarixə öz möhürünü vurdu. Hər zaman deyəcəyik: "Zəfər bizimdir, Qarabağ Azərbaycandır!"

**Günay HACIYEVA**



# Ordubad İncəsənət Məktəbinin uğurları

*Bu günlərdə Ordubad rayonunda keçirilən tədbirlərdən birində iştirak edirdim. Tədbirin bədii hissəsində səhnəyə çıxan Ordubad İncəsənət Məktəbinin şagirdləri balaca, incə barmaqları ilə tarı dilləndirir, pianoda zərif notlara ruh verərək bir-birindən gözəl ifalar səsləndirirdilər. Onların ifasında saf uşaqlıq səmimiyyəti, yaradıcılıq eşqi duyulurdu. Ordubad rayonunda belə istedadlı uşaqların yetişməsi bu yurd yerinin musiqi ruhunun, mədəniyyət ənənələrinin güzgüsüdür deyə düşünürəm.*

Məktəbin direktoru Zülfiyyə Seyidova deyir ki, məktəbdə müəllim və şagirdlərdən ibarət musiqi kollektivləri istənilən zaman hər hansısa tədbirə hazırlıqlı olmaq üçün mütəmadi məşq edirlər. Rayonda keçirilən, demək olar ki, bütün tədbirlərin bədii hissəsində kollektivin çıxışlarına rast gəlmək mümkündür. Məqsəd musiqi ilə insanların zövqünü oxşamaq, istedadlı şagirdləri rayon ictimaiyyətinə tanıtmaq, bacarıqlı və qabiliyyətli şagirdlərə dəstək olmaqdır. Bütün bunlar isə bir missiyaya xidmət edir ki, bu da Üzeyir Hacıbəyli tərəfindən bizə miras qoyulan Azərbaycan musiqisinin yaşadılması, inkişaf etdirilməsi və nəsildən-nəslə ötürülməsidir.

Öyrənirik ki, məktəbdə 12 ixtisas üzrə 285 şagird təhsil alır. Uzun illərdir ki, istər muxtar respublika, istərsə də respublika səviyyəli tədbirlərdə bu təhsil ocağı bir sıra uğurlara imza atıb. Qazanılan uğurlar isə, təbii ki, peşəkar kollektivin zəhmətinin nəticəsidir.

Zülfiyyə Seyidova bildirir ki, Ordubadda musiqi təhsilinə maraq olduqca yüksək səviyyədədir. Fəaliyyətə başladığı gündən məktəbin 2000-dən çox məzunu olub. Bu məzunlar arasında bəziləri öz yaradıcılıqları ilə Azərbaycan musiqisinə böyük töhfələr verməkdədirlər. Bu sırada Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilovun adını qeyd edə bilərik. Sevindirici haldır ki, vaxtilə məktəbin şagirdi olmuş Yaşar Xəlilov Qara Qarayev kimi Azərbaycan musiqisinə üslubu, yaradıcılığı ilə öz möhürünü vurmuş bir bəstəkarın sinfində təhsil alıb. Məktəbin inkişafında böyük rolu olan, uzun illər məktəbin direktoru vəzifəsində çalışmış, əməyi qiymətləndirilərək "Tərəqqi" medalı ilə təltif olunmuş Ordubad Rayon Mədəniyyət İdarəsinin müdiri Azər Məmmədov da bu məktəbin ilk məzunları sırasındadır. Bundan başqa, hazırda Ümid Musayev, Mahir İbrahimov, Sura İbrahimova, Könül İsmayılova, Dilarə Məmmədli, Səmra Məmmədli kimi məzunlarımız muxtar respublikadan kənarda bu sahədə öz uğurları ilə fərqlənirlər. Yusif Məmmədəliyev, Məmməd Səid Ordubadi, Məhəmməd Tağı Sidqi kimi şəxsiyyətlərin göz açdığı torpağın uşaqları incəsənət sahəsində öz istedadları ilə seçilirlər. Onu da vurğulamaq lazımdır ki, sadəcə, istedad parlamağa kömək etmir, bunun üçün çalışqanlıq da şərtdir. Məktəbin uğurunun bir açarı da məhz budur – çalışqanlıq!

Məktəb direktoru deyib: "Tədris ilinə yeni başlamışıq. Lakin buna baxmayaraq, əvvəldə də qeyd etdiyim kimi, istənilən zaman üçün konsert proqramımız hazırdır. Mütəmadi olaraq sinif konsertləri, hesabat konsertləri, əlamətdar günlərə həsr olunmuş rayon səviyyəli tədbirlərdə iştirakımız hər il olduğu kimi bu il də iş planımızda yer alıb. Bundan əlavə, yaxın tarixdə məktəbimiz "İncəsənət Məktəbi" statusu alıb və bu o deməkdir ki, bizim öhdəliklərimiz əvvəlki illərə nisbətən daha da artıb. Bundan sonra məktəbimizdə incəsənətin digər növləri də tədris olunacaq və bu da bizim istər gələcək planlarımızın, istərsə də fəaliyyət istiqamətimizin genişlənəcəyindən xəbər verir".

Öyrənirik ki, məktəbin "Səda" xor kollektivi 2006-cı ildən bəri muxtar respublikada keçirilən müsabiqələrin laureatıdır. Xormeystr Səbinə İbrahimovanın rəhbərliyi ilə kollektiv müxtəlif illərdə muxtar respublika qalibi olduğu üçün Bakı şəhərində keçirilən xor kollektivləri arasında müsabiqələrdə çıxış etmək imkanı qazanıb.

Hazırda kollektiv 2025-ci il Uşaq İncəsənət Festivalının final mərhələsində çıxış etmək üçün Bakı səfərinə hazırlaşır. Məktəbin Vokal ixtisası üzrə 3-cü sinif şagirdi Gülay Səfərova deyir ki, 2025-ci il Uşaq İncəsənət Festivalının 1-ci və 2-ci turunda uğurla iştirak edib. Konsertdə "Hamıdan gözəl mənəm" ifası ilə zalı coşduran Gülay, eyni zamanda məktəbi festivalda təmsil edən ən balaca şagirddir. Məktəbin skripka üzrə 7-ci sinif şagirdi Qumru Fərəcova da uğurları ilə məktəbi layiqincə təmsil edənlərdən biridir. İstedadı, çalışqanlığı ilə fərqlənən Qumru, həmçinin 2025-ci il Uşaq İncəsənət Festivalının 1-ci və 2-ci turunda uğurla iştirak edəcək.

Qısa müddətdə Ordubad İncəsənət Məktəbinin şagirdlərinin müşahidə etdiyimiz istedad və bacarıqları, məktəbin direktoru və şagirdlərlə söhbətlər bu təhsil ocağında çalışan müəllim kollektivinin zəhmətinin bəhrəsi, bu ünvana göstərilən dövlət qayğısının ifadəsidir. Biz də, öz növbəmizdə, kollektivə daha böyük uğurlar arzulayırıq.

Qeyd edək ki, uşaqların səhnədə göstərdiyi bacarıqları sabahkı uğurlarının ilk addımıdır. Onların gözlərindəki işıq parlaq gələcəklərindən xəbər verir.

**Bülbül RÖVŞƏNQIZI**









# NDU-nun Kembric Məktəbinin şagirdi beynəlxalq uğur qazanıb

*Gənclərin istedadı, zəhməti və inamı ilə formalaşan uğurlar hər zaman cəmiyyət üçün qürur mənbəyi olur. Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbinin VII sinif şagirdi Məryəm Məmmədova da bu qüruru yaşadan gənclərdəndir. O, dünyanın bir çox ölkəsində tanınan "Trinity College London" qurumu tərəfindən keçirilən beynəlxalq imtahanda iştirak edərək parlaq nəticə qazanıb.*

Məryəm piano musiqi alətində ifa bacarığı ilə seçilərək "Grade 2 Piano" beynəlxalq sertifikatına layiq görülüb. Bu uğur onun həm bacarığının, həm də davamlı məşğuliyyətinin göstəricisidir. "Trinity College London" imtahanları musiqi sahəsində ən nüfuzlu beynəlxalq qiymətləndirmələrdən sayılır və burada iştirak etmək, xüsusən də uğur qazanmaq gənc bir musiqiçi üçün böyük nailiyyətdir.

Məryəm musiqiyə kiçik yaşlarından maraq göstərib. İlk dəfə pianonun səsini eşidəndə bu alət ona sehrli gəlib. O deyir ki, musiqi onun üçün, sadəcə, hobbi deyil, həm də duyğularını ifadə etməyin bir yoludur: "Uşaqlıqdan musiqiyə qulaq asmağı çox sevirdim. Anam məni pianoya yazdıranda əvvəl bir az qorxurdum ki, çətin olar. Amma zaman keçdikcə hər şeyi daha yaxşı başa düşməyə başladım. İndi pianoda ifa etməyə başlayanda vaxtın necə keçdiyini hiss etmirəm. Hər dəfə ifa etdikcə yeni bir şey öyrənirəm".

O, imtahana da məhz anasının təşviqi ilə qatılıb: "Anam dedi ki, bu imtahan mənim üçün yaxşı təcrübə olar. Əvvəl bir az həyəcanlandım, çünki beynəlxalq imtahan idi. Amma müəllimim mənə çox kömək etdi. Çalışdım ki, həm düzgün ifa edim, həm də hisslərimi çatdırım. İmtahan çətin deyildi, amma çox diqqətli olmaq lazım idi. Hər notu düzgün vurmaqla yanaşı, onu ürəklə ifa etmək vacibdir".

Pianonun səsi Məryəm üçün adi bir səs deyil. O, musiqini bir növ dost kimi görür: "Musiqi mənim üçün sığınacaq kimidir. Hər dəfə pianonun arxasına keçəndə elə bil, başqa bir dünyaya düşürəm. Hər bir səslə bir hiss danışır. Mən də həmin hisslərin dilini öyrənmək istəyirəm. Əgər kefsiz olsam, pianoda bir mahnı çalıram və özümü daha yaxşı hiss edirəm".

1872-ci ildə yaradılan "Trinity College London" bu gün dünyanın ən qədim və nüfuzlu təhsil təşkilatlarından biri sayılır. Musiqi, teatr və ingilis dili sahəsində keçirilən imtahanlarda iştirak edən gənclər öz istedadlarını beynəlxalq səviyyədə təsdiqləmiş olurlar.



Gənc istedad bu uğurla kifayətlənmək niyyətində deyil. O, indi yeni əsərləri öyrənməyə başlayıb, müxtəlif musiqi janrlarında ifa etməyi planlaşdırır: "Hazırda klassik əsərlərlə yanaşı, bir az da müasir musiqiləri ifa etməyi öyrənirəm. Bəzən mahnılara öz duyğularımı əlavə edirəm. Bu mənim üçün çox maraqlıdır. Gələcəkdə professional musiqiçi olmaq və Azərbaycan musiqisini xaricdə tanıtmaq istəyirəm".

Məryəm üçün musiqi təkcə notlardan ibarət deyil, həm də səbir və nizam-intizam tələb edən bir sənətdir. O deyir ki, bəzən uzun məşqlərdən sonra barmaqları ağrıyır, amma bu onu dayandırmır: "Bəzən məşqlər çox olur, amma mən biləbilə davam edirəm. Çünki hər dəfə yeni bir mahnını öyrənəndə çox sevinirəm. Musiqi mənə həm səbir, həm də çalışqan olmağı öyrədib".

Məryəm isə deyir ki, ən böyük dəstək ailəsindən və müəllimlərindən gəlib: "Anam və müəllimim mənə həmişə inanıb. Onların dəstəyi olmasa, bəlkə də, bu qədər cəsarətli olmazdım. Mən istəyirəm ki, gələcəkdə daha çox insan mənim kimi musiqi ilə məşğul olsun. Çünki musiqi insanı xoşbəxt edir".

Gənc ifaçının dediyinə görə, o, boş vaxtlarında həm də rəsmlə məşğul olur, bəzən dostları üçün mahnılar ifa edir. Məktəbdə keçirilən tədbirlərdə də tez-tez səhnəyə çıxır və piano ifası ilə həmyaşıdlarının rəğbətini qazanır.

Məryəmin hekayəsi göstərir ki, istedadla yanaşı, inam və zəhmət də uğurun əsas açarıdır. O deyir ki, hər kəsin içində bir bacarıq var, sadəcə, onu tapmaq və üzərində çalışmaq lazımdır: "Əgər bir insan sevdiyi işlə məşğuldursa, yorulmur. Mən də pianonu sevirəm və hər gün onunla bir az da böyüyürəm. Hər dəfə yeni mahnı öyrənəndə çox sevinirəm. İnanıram ki, zəhmət heç vaxt yerdə qalmır".

Məryəm Məmmədovanın hekayəsi bir gənc qızın inam, istedad və əzmlə böyüyən uğur yoludur. Onun pianoda səsləndirdiyi hər not, ruhundan süzülən bir duyğunun səsidir. Bu uğur onun üçün bir başlanğıcdır. Daha böyük səhnələrin, daha parlaq nailiyyətlərin başlanğıcı.

Bu gün Məryəm NDU-nun Kembric Məktəbinin şagirdi olmaqla yanaşı, həm də Azərbaycanın gənc istedadlarından biridir. Onun pianoda səsləndirdiyi hər musiqi parçası bir arzunun, bir ümidin, bir gələcəyin səsi kimi səslənir.

**"Şərq qapısı"**

# Arxivlər etibarlı saxlanc yeridir

***A**rxivlər qədim dövrlərdən bəri cəmiyyətlərin inkişafında mühüm rol oynamışdır. İlk yazılı sənədlərin gil lövhələr üzərində qorunduğu mədəniyyətlərdən tutmuş orta əsr dövlətlərinin dəftərxana sisteminə qədər arxivlər bilik və idarəetmənin əsas dayaqlarından biri olmuşdur. Keçmişdə yalnız idarəetmə və hüquqi məqsədlər üçün istifadə olunan arxivlər bu gün cəmiyyətin bütün sahələrinə təsir göstərən vacib bir quruma çevrilmişdir.*



Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri N.Nərimanov tərəfindən verilən "Vahid arxiv fondu" haqqında dekretə əsasən arxiv yaradılmışdır. Ondan 5 il sonra Naxçıvan Muxtar Respublikasının tarixini özündə əks etdirən Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin 13 dekabr 1925-ci il tarixli Qərarı ilə yaradılaraq bu gün artıq 100 ildir ki, fəaliyyət göstərir.

Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində ayrı-ayrı idarə, təşkilat və müəssisələrə aid 794 fond mühafizə edilir. Həmçinin inqilabaqədərki dövrü (1917) əhatə edən 33 fond da qorunub saxlanılır. Bu fondlara İrəvan quberniyasının, Naxçıvan qəzasının xəzinə sənədləri, Gömrükxana, kredit idarələri, İrəvan Xalq Məktəblər İdarəsi və s. xüsusi qiymətli sənədlər daxildir. Bu sənədlərdən Naxçıvan xanları haqqında, hüquq-mühafizə orqanlarında işləmiş ali silkə məxsus olan şəxslər haqqında müəyyən qədər məlumat əldə etmək mümkündür. Eyni zamanda arxiv fondlarında Naxçıvan İnqilab Komitəsi, Mərkəzi İcraiyyə Komitəsi, Naxçıvan Xalq Komissarları Soveti və ona tabe olan digər komissarlıqlar haqqında sənədlər mövcuddur.

Belə ki, tarix elmləri namizədi Əli Əliyev, Adil Cəfərov, pedaqogika elmləri doktoru İbrahim Mollayev, filologiya elmləri doktoru Yavuz Axundov, Fərman Xəlilov, pedaqogika və psixologiya elmləri doktoru Gültac Əliyeva, tarix elmləri doktoru Fəxrəddin Cəfərov, şair Hüseyn Razi, Həsən Fətullayev, Müzəffər Nəsirli, Kəmalə Ağayeva, yazıçı-jurnalist Cəlil Rəfiyev, Azərbaycan SSR Xalq artisti Əyyub Haqverdiyev, İsa Musayev, İkinci Dünya müharibəsi iştirakçısı Qara Fərzəlibəyli, Azərbaycan SSR Əməkdar maarif xadimi Murad Tutayuk, Qəşəng Baharova və başqaları şəxsi arxivlərindəki sənədlərini arxivə vermiş, onların hər birinə ayrıca fond yaradılmışdır.

Dövlət Arxivində mühafizə edilən şəxsi fondlardan biri fondunda mindən çox qiymətli sənədi özündə cəmləşdirən tarix elmləri namizədi Əli Əliyevin şəxsi fond sənədləridir. Bu sənədlər içərisində onlarla əlyazma, məktublar, nadir fotoşəkillər, Moskva Dövlət Hərbi Arxivindən, vaxtilə Gürcüstan, Ermənistan, Azərbaycan dövlət arxivlərindən Naxçıvanın tarixi ilə bağlı müxtəlif sənədlərin surətləri, avtoqrafla verilmiş kitablar, mandatlar, vəsiqələr və s. vardır.

Əli Əliyevin şəxsi fondunda sovet hakimiyyətinin bərqərar olması uğrunda daşnaklara qarşı mübarizə aparan, Azərbaycan xalqının tarixinə Qırmızı taborun komandiri kimi düşən Abbasqulu ağa Şadlinski və onun dəstəsi haqqında, Naxçıvanda inqilabdan əvvəl mövcud olan hakimiyyətə qarşı mübarizə aparan kəndli hərəkatı, Azərbaycanda qaçaq hərəkatı, bu hərəkatın önündə gedən Qaçaq Nəbi haqqında, Ə. Düdənginski,



Araz-Türk Respublikası haqqında, Naxçıvan xanları Ehsan xan, Hüseyn xan Naxçıvanski, Kalbalı xan Naxçıvanski haqqında məqalələr mühafizə olunur.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin şəxsi fondları içərisində uzun müddət Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi işləmiş tarix elmləri namizədi Adil Cəfərovun şəxsi fondu mühüm yer tutur. Bu fond 1946-cı ildən 1988-ci ilə qədər 40 illik bir dövrü əhatə edir. Əmək və müharibə veteranı olan alimin şəxsi fondunda İkinci Dünya müharibəsi ilə bağlı sənədlər də mühüm yer tutur.

Həmçinin pedaqogika elmləri doktoru İbrahim Mollayevin şəxsi fondunda iki mindən artıq sənəd toplanmışdır ki, bunların arasında Məktəbi-Tərbiyənin "1900-1901-ci dərs ilinə aid birinci sinif şagirdlərinin dərs proqramı", "M.T.Sidqinin attestatının fotorepreduksiyası", S.Mümtaz tərəfindən yazılmış "M.T.Sidqinin tərcümeyi-halı", "XIX əsr Naxçıvan ziyalılarının fotoşəkilləri", "M.T.Sidqinin həyat və fəaliyyətinə dair sənədlərin fotosurətləri və s. sənədlər də vardır. İ.Mollayevin şəxsi fondunda olan maraqlı sənədlərdən biri də onun "XIII-XIV əsrlərdə Azərbaycanda məktəb və pedaqoji fikrin inkişaf tarixinə dair" apardığı tədqiqatlar və yazdığı elmi əsərlərdir.

"Qızıl Qələm" mükafatı laureatı, yazıçı-jurnalist Cəlil Rəfiyevin şəxsi fondunda müəllifin roman, povest, hekayə və oçerklərinin əlyazmaları, İtaliya partizan hərəkatının iştirakçısı olan Cəlil Rəfiyevə İtaliya hökuməti tərəfindən verilmiş pasport, "Rovetta" partizan təşkilatının üzvü olmaq haqqında vəsiqə, bir çox fotoşəkillər, arayışlar və başqa sənədlər mühafizə edilir.

Şair-dramaturq Hüseyn Razinin şəxsi fondunda isə onun 1946-cı ildə Ordubad şəhərində müəllim işlədiyi illərdə yazdığı və heç yerdə çap olunmamış "Mən Hamlet deyiləm" adlı şeirinin ilk əlyazmasından tutmuş son günlərə kimi yazmış olduğu əsərlərin və məqalələrin əlyazması, məktublar, fotoşəkillər, Azərbaycan yazıçılarının IV və XI Qurultayında iştirak etmək üçün verilmiş mandatlar, eləcə də ədəbi-bədii gecə və yığıncaqlarla iştirakını təsdiq edən sənədlər, dəvətnamələr, proqramlar vardır.

Şəxsi fondlardan danışarkən filologiya elmləri doktoru, professor Yavuz Axundlunun da şəxsi fondu haqqında məlumat vermək yerinə düşərdi. Y.Axundlunun şəxsi sənədləri 2007-ci ildə arxivin iş qaydalarına uyğun olaraq elmi-texniki cəhətdən tərtibə gətirilərək fond nömrəsi verilmiş, fond sənədləri 1916-2007-ci illəri əhatə etmişdir. Buraya onun əlyazmaları, məktubları, tərcümeyi-hal sənədləri, təsviri sənədlər, Yavuz Axundlunun haqqında olan və onun topladığı sənədlər daxildir. Onun sənədləri içərisində "Qarabağ sınağı", "Zülmət səltənəti" kimi elmi əsərləri, Əziz Şərifin, M.Təhmasibin, Məhərrəm Bayramovun, Xəlil Rzanın məktubları və s. mövcuddur. Bu fondda həmçinin alimin yubileyləri ilə bağlı gələn teleqramlar, proqramlar, dəvətnamələr də toplanmışdır.

Azərbaycanın Xalq yazıçısı Hüseyn İbrahimovun da şəxsi sənədləri Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində mühafizə olunan fondlardan biridir. 86 saxlama vahidini özündə birləşdirən şəxsi fond 1950-2009-cu illəri əhatə edir. Burada yazıçının əlyazmaları, məktubları, tərcümeyi-hal sənədləri, fotoşəkilləri, haqqında olan sənədlər qruplaşdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə son illərdə Azərbaycanın Xalq artistləri Səməd və Tofiq Mövləvilər, Sofiya Hüseynova, şair-publisist Vaqif Məmmədov, Elman Həbibi kimi görkəmli şəxslərin şəxsi sənədləri qəbul edilmişdir.

"Şöhrət" ordeni, "Tərəqqi" medalı ilə təltif olunmuş, Azərbaycanın Əməkdar incəsənət xadimi, şair-publisist Elman Hacıyevin (Elman Həbib) 2017-ci ildə 35 saxlama vahidindən ibarət sənədləri elmi-texniki cəhətdən tərtib edilərək arxivə təhvil verilmişdir.

Arxivdə mühafizə olunan alim, şair Vaqif Məmmədovun şəxsi fonduna daxil olan sənədlər 1944-2017-ci illəri əhatə edir. V.Məmmədovun elmi yaradıcılıq fəaliyyətini əks etdirən sənədlərə C.Məmmədquluzadə adına İkiillik Müəllimlər İnstitutunun yaranma tarixi və fəaliyyəti mövzusunda doktorluq dissertasiyası ilə bağlı topladığı sənədlər və s. daxildir.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin fondlarının zənginləşdirilməsi üçün şəxsi sənədlərin qəbulu işləri hazırda da davam etdirilir. Ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində vaxtilə Azərbaycan Yazıçılar Cəmiyyətinin Naxçıvan filialında məsul katib işləmiş yazıçı Nağı Nağıyevin, şair Adil Qasımovun sənədlərindən ibarət şəxsi fondlar yaradılmışdır.

Şəxsi sənədlərin toplanıb mühafizə olunmasının başlıca səbəbi və eləcə də tarixi əhəmiyyəti budur ki, indiki və gələcək nəsil bu zəngin arxivimizdəki sənədlərdən səmərəli istifadə edərək layiqli elmi əsərlər, kitablar, ayrı-ayrı şəxsiyyətlər haqqında monoqrafiyalar yarada bilsinlər.

Qiymətli sənədləri yalnız dövlət arxivlərində elmi qaydada nizama salmaq, onları xüsusi üsullarla bərpa etmək və eyni temperaturda saxlamaq yolu ilə illərlə mühafizə etmək olar. Bu cəhətdən sənədlərin dövlət qaygısı ilə əhatə olunmuş arxivlərdə saxlanması daha etibarlı və məqsədəuyğundur.

# Tarixin yaddaşı

***Hüseyn Cavidin həyatını əks etdirən arxiv sənədləri qiymətli mənbədir***



Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavidin həyat və yaradıcılığı xalqımızın mədəniyyət tarixində əvəzolunmaz yer tutur. Romantik şair, dramaturq və filosof kimi Cavidin yaradıcılığı milli poeziyamızın inkişafına güclü təsir göstərmişdir. Onun əsərlərində bəşəri ideyalar, azadlıq arzusu, ədalət və insanlıq prinsipləri əsas yer tutur. Onun ədəbi irsi Azərbaycan romantizminin zirvəsini təşkil etməklə yanaşı, həm də milli azadlıq, insani dəyərlər və mütərəqqi ideyaların carçısı olmuşdur.

Hüseyn Cavid yalnız poetik və fəlsəfi yaradıcılığı ilə deyil, həm də çətin və keşməkeşli həyatı ilə xalqın yaddaşında əbədi iz qoymuşdur. Dövrün sərt ictimai-siyasi şəraiti, 1930-cu illərdə hökm sürən totalitar rejim Cavidin həyatına və taleyinə ağır zərbələr vurmuşdur.

Hüseyn Cavidin həyat və fəaliyyətinə dair ən etibarlı mənbələrdən biri məhz arxiv sənədləridir. SSRİ totalitar rejiminin minlərlə ziyalılara qarşı həyata keçirdiyi repressiyaların qurbanı olan Hüseyn Cavidin taleyi, onun faciəli ölümü arxiv sənədlərində aydın şəkildə öz əksini tapmışdır. Bu sənədlər onun yaradıcılığına qarşı başlanan tənqidlərdən tutmuş, həbs olunması, sorğu-sualı, sürgün həyatı və ölümünədək olan prosesləri əks etdirir.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində mühafizə olunan bu sənədlər Cavidin məruz qaldığı haqsızlıqları, onun mənəvi böyüklüyünü və dövlət səviyyəsində irsinin bərpası üçün görülən tədbirləri işıqlandırır.

Arxiv materiallarında Cavidin həbsinə dair bir sıra istintaq sənədləri qorunub saxlanılmışdır. Belə ki, 4 iyun 1937-ci ildə şairin Bakıda həbs edilməsi haqqında Azərbaycan Xalq Daxili İşlər Komissarlığının qərarı diqqəti cəlb edir.

Onun şəxsi "sorğu vərəqi"ndə yazıçının doğum tarixi 1882-ci il, milliyyəti azərbaycanlı, sosial vəziyyəti kəndli, partiyasız olduğu, alitəhsilli və evli olduğu göstərilir. Bu vərəqdə həbsin səbəbi kimi "gizli millətçi, əks-inqilabi fəaliyyət" göstərilmiş, Cavid Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü xüsusi şöbəsində qeydiyyata alınmışdır. Bu sənədlərdən görünür ki, yazıçı uzun-uzadı istintaqlara cəlb olunmuş, günlərlə davam edən sorğulara tab gətirmişdir.

1939-cu ildə tərtib edilən başqa bir arayışda isə qeyd olunur ki, Hüseyn Cavid SSRİ Xalq Daxili İşlər Komissarlığının xüsusi iclasının Qərarı ilə azadlıqdan məhrum edilmiş və Uzaq Sibirə sürgün olunmuşdur. Arxiv sənədlərindən aydın olur ki, Hüseyn Cavid əvvəlcə Maqadana, daha sonra isə Şərqi Sibirə – İrkutsk vilayətinin islah-əmək düşərgəsinə göndərilmişdir. Burada o, ağır iqlim şəraiti, aclıq və xəstəliklərlə üz-üzə qalmışdır. Dramaturqun səhhəti getdikcə pisləşmiş, 1941-ci ilin dekabrında sürgün həyatı onun ömrünə son qoymuşdur.

Arxivdə saxlanılan materiallara görə Cavid 1941-ci il dekabrın 5-də Qapalı Əlillər Evində saat $22^{30}$-da ayaqlarını soyuq aldığından, sepsis və ürək xəstəliyindən dünyasını dəyişmişdir. O, məhbus qəbiristanlığında 59 nömrəli qəbirdə 2 metr dərinliyində dəfn edilmişdir.

Arxiv sənədləri yalnız Cavidin həbs və sürgün illərini deyil, həm də sonrakı dövrdə onun irsinə göstərilən qayğını da təsdiqləyir. Belə ki, 1981-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" Qərar qəbul edilmiş, Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin abidələrinin qoyulması, Bakıda 1920-1937-ci illərdə yaşadığı evin fasadına xatirə lövhəsi vurulması, üzərində Hüseyn Cavidin portreti olan xatirə medalının hazırlanması və s. Tədbirlər həyata keçirilmişdir.

1982-ci ildə Ulu Öndər Heydər Əliyev Naxçıvana səfəri zamanı yubileylə bağlı görülən işlərlə maraqlanarkən ziyalılar ona Cavidin nəşinin Azərbaycana gətirilməsi təklifi ilə müraciət etmişlər. Beləliklə, Heydər Əliyev SSRİ rəhbərliyinə müraciət etmiş, onun təşəbbüsü və prinsipial mövqeyi nəticəsində Naxçıvan Vilayət Partiya Komitəsi Cavidin cənazəsinin gətirilməsi ilə bağlı 12 oktyabr 1982-ci il tarixli qərar qəbul etmişdir. Bu qərarın icrası komitənin katibi Həmid Cəfərova tapşırılmışdır.

Beləliklə, Hüseyn Cavidin nəşi Uzaq Sibirdən gətirilərək Naxçıvanda dəfn olunmuşdur. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənədlər arasında bu mərasimlə bağlı məlumatlar da mövcuddur. Bu materiallar bir daha sübut edir ki, milli irsimizin qorunması, böyük sənətkarlarımızın adlarının əbədiləşdirilməsi dövlət səviyyəsində həyata keçirilən mühüm işlərdən olmuşdur.

Hüseyn Cavidin nəşinin Naxçıvana gətirilməsi, onun Naxçıvanda əbədi məskən tapması Hüseyn Cavidin şəxsiyyətinə və yaradıcılığına verilən yüksək dəyərin göstəricisi idi. Bu yalnız bir ədibin xatirəsinə ehtiram yox, həm də Azərbaycan xalqının milli-mənəvi yaddaşının bərpası idi. Bu hadisə onun irsinin gələcək nəsillərə çatdırılmasına böyük təkan vermiş, yaradıcılığının yeni mərhələdə araşdırılmasına geniş imkanlar açmış, həmçinin Azərbaycan ədəbiyyatında romantik ənənələrin davamlılığını təmin etmişdir. Bu addım həm də repressiya qurbanlarının xatirəsinə ehtiramın və ədəbiyyat tarixinə obyektivlik prinsipinin bərpasının mühüm göstəricisi kimi qiymətləndirilməlidir.

Hüseyn Cavidin həyat və yaradıcılıq yolunu öyrənmək üçün arxiv sənədlərinin əhəmiyyəti misilsizdir. Onlar yalnız şairin şəxsi taleyinə işıq salmır, həm də, bütövlükdə, Azərbaycanda repressiya dövrünün real ictimai-siyasi mənzərəsini ortaya qoyur.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində qorunan materiallar Cavidin necə əsassız ittihamlarla həbs olunduğunu, hansı şəraitdə sürgün həyatı yaşadığını, eyni zamanda onun irsinə sonrakı dövrlərdə dövlət səviyyəsində qayğı göstərildiyini təsdiqləyir.

Bu gün Hüseyn Cavid yalnız böyük ədib kimi deyil, həm də milli iradənin, ədalət və haqq uğrunda mübarizənin rəmzi kimi yaşayır. Onun həyatını əks etdirən arxiv sənədləri isə gələcək nəsillər üçün qiymətli bir tarixi yaddaşdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi***

# Mövsümi məhsullar alıcını da, satıcını da razı salır





Səhərin erkən saatlarıdır. Bazarda addımbaşı səs-səda eşidilir, biri tərəzinin başında durub, biri yeşikdən alma seçir, digəri də torbaya pomidoru yığır. Payızın özünəməxsus havası duyulur. Bazarın hər küncündə nemətlərin bolluğu hiss olunur.

Meyvələrin çoxluğu göz oxşayır, bir tərəfdə qırmızı almanın parıltısı, bir tərəfdə sarı armudların cərgəsi, qarşıda isə gözoxşayan xurmalar. Bu mənzərəyə baxanda istər-istəməz düşünürsən, bolluq olan yerdə həm alıcı razıdır, həm də satıcı.

Üç ildir ki, bazarda satıcılıqla məşğul olan Musa Əsgərov bu mənzərəyə artıq alışıb. Onun sözlərinə görə, meyvə-tərəvəzlər hər il olduğu kimi, bu il də boldur və qiymətlərdə də dəyişiklik yoxdur. Hər şey sabitdir.

O deyir ki, məhsul bol olanda qiymət artımı da yüksək olmur. Bazara çox məhsul çıxanda qiymət də bir qədər aşağı düşür.

Bazarın gedişində alıcılarla da söhbətləşdik. Qadınlardan biri torbasına alma seçib yığarkən deyir: “Hər payız gələndə qorxuram ki, qiymətlər qalxar. Amma bu il elə olmadı. Keçən illə demək olar eynidi. Həm keyfiyyətli, həm də boldu”.

Bolluğun gətirdiyi ən gözəl mənzərə bazarda insanlar arasında rahatlıqdır. Nə əsəbi satıcı var, nə də narazı alıcı. Hər kəsin çöhrəsində razılıq var.

Satıcılar mallarını səliqə ilə düzürlər. Qırmızı, yaşıl, sarı rənglərin içində elə bil, təbiət bir tablo yaradıb. Göyərtilər bir kənarda, ağzına kimi kələm dolu kisələr, bir azda aralıda təzə yığılmış soğanlar…

Kimisi bir tərəfdə “Üzüm neçəyədir?” – deyir, kimisi isə alma seçərkən “Qırmızılar şirindimi?” sualını verir.

Bazarda belə səhnələr artıq bir növ həyat tərzidir. Hər gün bu mənzərə təkrarlanır, amma hər dəfə fərqli hisslərlə.

Musa Əsgərov bildirir ki, bazardakı məhsulların çoxu yerli istehsaldır, amma bəzi meyvələr başqa bölgələrdən gətirilir: “Xurma, portağal, limon kimi meyvələr bizdə yetişmir. Onlar, əsasən, cənub rayonlarından, eləcə də Bakı tərəfdən gətirilir. Amma qiymət fərqi böyük deyil. İndi bazarda hər zövqə uyğun meyvə tapmaq olur, istəyən yerli alma, istəyən də uzaq rayondan gələn portağalı alır”.

O əlavə edir ki, bazarda sabitlik həm də alıcı çoxluğuna görə olur: “Bəzən elə gün olur ki, məhsul tez tükənir. Çünki camaat həm gündəlik yemək üçün, həm də qış tədarükü üçün alır. Mövsümə görə turşu, mürəbbə, qurudulmuş meyvə hazırlayırlar”.

Bolluğun kökü, əlbəttə, tarladadır. Fermerlərin əkin sahələrində bu il məhsuldarlıq artıb. Hava şəraiti nisbətən isti keçsə də, suvarmada problem olmayıb. Bu da bazara daha çox məhsulun çıxmasına şərait yaradıb.

Satıcılar deyirlər ki, artıq məhsulların çoxu yerli fermerlərdən alınır, bu da qiymətləri sabit saxlayır. Əvvəllər məhsullar daha çox başqa bölgələrdən gətirilirdisə, indi daha az gətirilir.

Bazarda gəzərkən qulağa gələn səslər qarışır: tərəzinin taqqıltısı, bir tərəfdən alıcının “Təzədir?”, digər tərəfdən, satıcının “Götürsən endirim edərəm” sözləri. Bu səs-küy, əslində, sabitliyin səsidir, demək ki, hər şey qaydasında, bazarın ritmi yerindədir.

Hər addımda bərəkət, hər torbada təbiətin payı görünür. Biri alır, biri satır, amma hər iki tərəf razı qalır.

Musa Əsgərov vurğulayır ki, ən yaxşı alış-veriş çox zaman elə bu mövsümdə olur.

Payız bazarı həm satış yeri, həm də təbiətin səxavətinin nümayişidir. Bu il də bazar bolluq içindədir, qiymətlər alıcıların cibinə uyğundur. Hər tərəf ahəng içindədir, payızın rəngləri, meyvələrin ətri, insanların səsi bir melodiyaya çevrilib.

Musa Əsgərovun dediyi kimi, “Hər il necədirsə, bu il də elədir”. Sabitlik, bolluq və razılıq.

✍ Elnurə CƏFƏROVA





## Naxçıvanda Zəfər Gününə həsr olunmuş beynəlxalq reytinqli şahmat turniri keçiriləcək




Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə 30 oktyabr-5 noyabr 2025-ci il tarixlərdə Naxçıvan Şahmat Mərkəzində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş şahmat üzrə beynəlxalq reytinqli turnir keçiriləcək.

“İsveçrə” sistemi üzrə 9 turdan ibarət turnirdə FIDE ID hesabı olan hər kəs iştirak edə bilər.

Turnirdə iştirak etmək istəyən şahmatçılar yarış elan olunduğu gündən etibarən 30 oktyabr 2025-ci il saat $14^{00}$-dək Naxçıvan Şahmat Mərkəzinə müraciət etməklə və ya 055-608-08-28 “WhatsApp” nömrəsinə yazaraq qeydiyyatdan keçə bilərlər.

Turnirin gündəlik nəticələri və xal cədvəli *www.chess-results.com* saytında yerləşdiriləcək.

Yekun nəticələrə əsasən I yerə 500, II yerə 300, III yerə 150 manat pul mükafatı, kubok, medal və diplomlar təqdim olunacaq. Həmçinin 8, 10, 12,14 yaşadək oğlan və qız şahmatçılar arasında hər yaş kateqoriyası üzrə ən çox xal toplayan şahmatçılar əlavə olaraq 50 manat pul və diplomla mükafatlandırılacaq.

Qeyd edək ki, turnirin təşkilində məqsəd Zəfər Gününün qeyd olunması ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında şahmatın təbliği və inkişafına, şahmatçıların oyun təcrübəsinin və beynəlxalq reytinqinin artırılmasına nail olmaqdır.

## *Çaparlar birincilik uğrunda mübarizə aparıb*



Şərur Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Kərimbəyli kəndində yorğa atlar üzrə dostluq yarışı keçirilib.

3 kilometr məsafə üzrə keçirilən yarışda 15 çapar mübarizə aparıb. Gərgin mübarizə ilə yaddaqalan yarışın keçirilməsində əsas məqsədi atçılıq ənənələrinin qorunması və gənclərin bu sahəyə olan marağının artırılması olub. “Kim yaxşı sürər” şüarı altında keçirilən yarışın qalibi adını Kəngərli rayonun Qabıllı kənd sakini Əli İbrahimov “Volter” ləqəbli atı ilə qazanıb. Şərur rayonunun Çomaxtur kənd sakini Xoşbəxt Qədimov və Danyeri kənd sakini Elsəvər Quliyev isə finiş xəttini ikinci və üçüncü olaraq başa vurublar.

Sonda qaliblər təşkilatçılar tərəfindən diplom və kubokla təltif ediliblər.



### *İtmişdir*

Sədərək rayonu, Dəmirçi kənd sakini Şükürov Qəzənfər Ağa oğlunun adına olan JN-983A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa şəhərində yaşamış Əliyeva Ruqiya Qara qızının adına olan 186 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində Abbasova Əminə Əkbər qızının adına verilmiş JN-220A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Ləkətağ kəndində yaşamış Hacıyeva Leylan Qaraş qızına məxsus JN-9A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Həbibova Zəhra Abdulla qızının adına olan JN-1263A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Musayeva Türkanə Cabbar qızının adına verilmiş 509271 nömrəli Yeni Azərbaycan Partiyası vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Babayev Qurban Kazım oğlunun adına olan JN-2758 nömrəli, 10300058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kəndində Hümbətova Aynurə Fərzalı qızına məxsus olan fərdi yaşayış evinin 2359 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kəndində yaşamış Kazımov Vilayət Abbas oğlunun adına verilmiş JN-068A nömrəli, 10311058 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Əliyev Rizvan Məhəmməd oğluna məxsus Kəngərli rayonu, Qarabağlar kəndində yerləşən JN-395A və JN-395B nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində yaşamış İbrahimova Səkinə İsmayıl qızının adına verilmiş JN-578A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Qasımova Arifə Abdulla qızının adına olan JN-918A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kəndində yaşamış Mehdiyev Xanlar Ağa oğluna məxsus JN-63A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini Məmmədov Kamil İbrahim oğlunun adına verilmiş JN-236 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Yaycı kəndində yaşamış İsmayılov Əyyub Əli oğluna məxsus JN-237B nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkəndində yaşamış Heydərov Lətif Əli oğluna məxsus JN-183A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Heydər Əliyev prospekti, bina 34-də yerləşən, Babayeva Nərmin Yusif qızına məxsus 21 nömrəli mənzilin texniki pasportu və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Məhərrəmov Mahmud Əhməd oğlunun adına olan 87A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, İstiqlal küçəsi, ev 125-də yerləşən 27 saylı mənzilə dair Quliyev Sahib Əziz oğlunun adına verilən 6219 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Niftəliyev Yaqub Bağır oğlunun adına olan A-002678 nömrəli, 108013005852 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 260

*Nömrəyə məsul:* Ceyhun Məmmədov, Turan Məmmədli, Rafiq Təhməzov
*Dizayner:* Tacirə Vəliyeva

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*